# İsrail İranın 3 generalını və diplomatlarını öldürdü


# Hürriyyət

SİZİN ÜÇÜN QƏZET

№12 (3303) 2 Aprel / 2024-cü il | Həftədə 1 dəfə çıxır | Qiymәti: 60 qəpik


**ANA XƏBƏR**



## Ermənistan müharibəyə hazırlaşır?

# Qırğızıstanda "dövlət çevrilişi" şousu

Ölkə rəhbərliyinə "sui-qəsd təşkil etmək" ittihamı ilə həbs olunan azərbaycanlıların yaxınlarından rəsmi qurumlara müraciət




4

**GÜNÜN NƏBZİ**

**MEDİA**

## "Brüssel görüşü yaxınlaşdıqca Rusiyanın Paşinyana təzyiqi artır"



Elxan Şahinoğlu: "ABŞ, Avropa İttifaqı və ya Fransa Ermənistanla ikitərəfli əməkdaşlıq sazişi imzalasa belə, həmin sazişlər işləməyəcək" 5

**Xəbər**

## "Rusiyaya bağlı bəzi qüvvələrin müharibə ritorikası..."

ADP danışıqlar yolunu təklif edir; "Yeni müharibə Azərbaycanın milli maraqlarına uyğun deyil" 2

**TƏHLİL**

## Rusiyaya xidmət edən milli telelotularımız...

Azərbaycanın efirindən Rusiyaya sevgi aşılayan verilişlər yığışdırılmalı, şou-biznes həşəratları rədd edilməlidir 3

**Təhsil**

## İngilis dili müəllimi təhsildəki özbaşınalıqlardan yazır

"Ümid edirəm ki, Gəncədə dostbazlıq və qohumbazlıq oyunları bitəcək" 10

**Şikayət**

## Birinci qrup əlil əlillərin Bərpa Mərkəzindən qovuldu

Aydın Hüseynov: "İqbal müəllim məni dinləmədi və müalicə müəssisəsindən qovdu..." 7

**Hüquq**

## "Keçmiş məhkumlara pis münasibət bəslənilir"



İctimai Birlik sədrindən ölkə başçısına müraciət 12

**MEDİA**

## Azərbaycana qarşı hərbi təxribat cəhdinin pərdəarxası



Məhəmməd Əsədullazadə: "Bu, bir daha Paşinyanın ortaya müstəqil siyasi iradə qoya bilmədiyini göstərir" 8

**Baxış**

## Problemlərin kökü harda gizlənir?

Cəmiyyətimiz üçün önəmli, əhəmiyyəti olan bir sıra sahələrdəki fəlakətli vəziyyətlərin səbəblərini soraqlayaraq, bu vəziyyətdən israrla çıxış yollarını arayan İ.Sabirqızının bu fədakar fəaliyyətini ancaq təqdir edib, alqışlamaq olar. Öncə İ.Sabirqızının "Hürriyyət" qəzetinin 12.03.2024-cü il sayında bir çox sahələrdəki mövcud problemlər və onların aradan qaldırılması üçün həyata keçirilməli olan tədbirlər barədə, Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiyasının eksperti, "Konstitusiya" Araşdırmaları Fondunun prezidenti, Daxili İşlər Nazirliyi yanında İctimai şuranın sədri Əliməmməd Nuriyevlə geniş müsahibəsini əhatə edən, "Azərbaycanda təkrar cinayətkarlığın artması üçün münbit şərait var" adlı yazısında Ə.Nuriyev deyir; - Cinayətin təkrar törədilməsi o deməkdir ki, bunun üçün münbit şərait var... 6

**Dünya**

## Baltimor körpüsünü kim uçurdu?

ABŞ-ın "heroin paytaxtı"na gedən yolun bağlanılması təsadüf, yoxsa düşünülmüş plandır?

Bir neçə gün əvvəl Sinqapur bayrağı altında üzən və Şri-Lankaya gedən konteyner gəmisi Baltimorda Patapsko çayı üzərindən Frensis Skott Key adlı (ABŞ dövlət himninin müəllifi) avtomobil körpüsünə çırpıldı. ABŞ-a yük daşıyan əksər transatlantik yük gəmiləri kimi, Sinqapur bayraqlı konteyner gəmisi "Dali" də Kolomboya getməzdən əvvəl keçən həftə Baltimorda Nyu-York və Nyu-Cersi limanlarında dayandı. Sinqapur Dəniz Təşkilatının məlumatına görə, gəmidə insidentdən dərhal əvvəl "qısa müddət ərzində nasazlıq baş verib". Nəticədə gəmi müvazinətini saxlaya bilməyib və Frensis Skott Key körpüsü ilə toqquşub. 9

SİZİN ÜÇÜN QƏZET
# Hürriyyət
№12 (3303) 2 Aprel / 2024-cü il Həftədə 1 dəfə çıxır Qiymәti: 60 qәpik

# Lukaşenkonun cangüdənini zəhərlədilər



## Ona talliumdan zəhərlənmə diaqnozu qoyulduğu iddia edilir

**Yanvarda Rusiyanın Sankt-Peterburq şəhərinə səfəri zamanı zəhərləndiyi ehtimal edilən Belarus prezidenti Aleksandr Lukaşenkonun təhlükəsizlik əməkdaşı ölüb.**

Hurriyyet.az xəbər verir ki, bu məlumatı Belarus liderinin ətrafındakı iki mənbə təsdiqləyib. "Kremlevskaya tabakerka" teleqram kanallarının məlumatına görə, Lukaşenkonun Sankt-Peterburqa səfəri zamanı onun mühafizəçilərindən biri xəstələnib və təcili olaraq Minskə göndərilib. Belarus paytaxtında mühafizəçiyə ağır metaldan - talliumdan zəhərlənmə diaqnozu qoyulduğu iddia edilir.

"Belarus bu məsələ ilə bağlı rəsmi açıqlama verməyib. Lukaşenkonun özünün reaksiyası hələ ki, məlum deyil", - telekanal vurğulayır.

Əyləncə səhifəsi

# Qısqanc qadın ərinin cinsi orqanını kəsdi



Tatarıstanda qadın qısqanclıq zəminində ərinin cinsi orqanını kəsib.

Lent.az bildirir ki, hadisədən sonra kişi huşsuz vəziyyətdə xəstəxanaya yerləşdirilib. "Spirtli içki içilən zaman kişi arvadına onu aldatdığını deyib. Bu xəbərdən sonra arvad əsəbiləşərək bıçağı götürüb və onun cinsiyyət orqanını kəsib", - xəbərdə vurğulanır.

Bildirilir ki, kişi şok və ağrıdan huşunu itirərək ağır vəziyyətdə xəstəxanaya yerləşdirilib. Nəticədə orqanın tam amputasiyası üçün əməliyyat aparmaq lazım gəlib.

# Alimlərdən Marsla bağlı inanılmaz kəşf

**ABŞ Milli Aeronavtika və Kosmik Tədqiqatlar İdarəsinin (NASA) alimləri müəyyən ediblər ki, Mars dərhal susuzlaşmayıb.**

Milli.az xəbər verir ki, planetdə zamanla rütubət və quraqlıq dövrləri bir-birini əvəz edib. Bu barədə Kosmik Agentliyin rəsmi saytında məlumat verilib. Tədqiqatçıların qənaətləri "Curiosity" roverinin əldə etdiyi yeni məlumatlara əsaslanır. Qurğunun süxurların tərkibi haqqında ötürdüyü məlumatda suyun buxarlanması zamanı tez-tez əmələ gələn sulfatlarla, duzlu minerallarla zəngin təbəqə aşkarlanıb.

Bu isə o deməkdir ki, Marsın bu bölgəsini bir neçə dəfə su basıb.





# Alla Puqaçova xarici agent kimi tanınmayacaq

**Müğənni Alla Puqaçovanın xarici agent kimi tanınması bağlı xəbərini sosial şəbəkə istifadəçiləri və rusiyalı məşhurlar aktiv müzakirə edirlər.**

Xarici KİV-lərin xəbərinə görə, tanınmış jurnalist Kseniya Sobçak da öz fikrini bildirib. O, bunun baş verməyəcəyinə, baş verərsə, böyük səhv olacağına inandığını yazıb. Kseniya Sobçak bildirib ki, Alla Puqaçovanın adı xarici agentlərin reyestrinə daxil edilməyəcək.

"Keçən həftə internetdə belə bir ehtimalla bağlı şayiələr yayıldı. Kim nə qədər çalışsa da, o, irimiqyaslı bir fiqurdur. Alla Borisovna isə heç bir radikal yazı və ya siyasi bəyanatla çıxış etməyib" - Sobçak yazıb.

Müğənni Alla Puqaçova bir müddət öncə həmyerlilərini qullarla müqayisə edərək, normal insanların Rusiyaya qayıtmaq istəmədiyini bildirib.

# Dani Alvesi 1 milyona azad etdirənin kimliyi bəlli oldu

## Məqsəd ondan yaxın günlərdə geniş müsahibə almaq istəyi olub...



**1 milyon avroluq girov qarşılığında azadlığa buraxılan Dani Alves üçün bu məbləğin kimin ödədiyi bəlli olub.**

Xarici KİV-lər bildirir ki, pul ödənişi veteran futbolçunun ölkəsində dərc edilən jurnallardan biri tərəfindən həyata keçirilib.

Adı qeyd olunmayan jurnalın bu addımı atmaqda məqsədi Alvesdən yaxın günlərdə geniş müsahibə almaq istəyi olub. Razılığa əsasən, braziliyalı həbsxanada yaşadığı bütün maraqlı anlar haqqında danışacaq.

Qeyd edək ki, fevralın 22-də Alves cinsi təcavüzdə təqsirli bilinərək 4,5 il müddətinə azadlıqdan məhrum edilib. Bundan əvvəl onun üçün 1 milyon avroluq girovu Neymar və Memfis Depayın ödədiyi də deyilirdi.

# Lotereyadan 1,5 milyon uddu, amma...



**Çində bir qadın lotereyada 930 min (1 581 000 AZN) dollar udub, lakin onun bu sevinci çox çəkməyib.**

Hurriyyet.az xəbər verir ki, qadın qazandığı cekpotu pencəyinin cibinə qoyub. Daha sonra o, pencəyi səhvən paltaryuyan maşına atıb. Saatlar sonra hadisədən xəbər tutan qadın biletin parçaladığını görüb və lotereya mərkəzinə zəng edib.

O vəziyyəti izah etsə də, şirkət pulu yalnız bileti təqdim etdikdən sonra verəcəyini bildirib.

Çinli hadisədən sonra depresiyyaya düşdüyünü açıqlayıb.

"İndi mən daim bu barədə düşünürəm və bu məni incidir", - deyə qadın yerli KİV-ə etiraf edib.

**Təsisçi:**
Sərdar Cəlaloğlu

**Baş redaktor:**
Vüqar Məmmədov
Tel: 070 333 22 85
012 496 98 93
E-mail: vuqar-mt@mail.ru

**Dizayner:**
Seymur Həsənov

"Hürriyyət" qəzetinin internet unvanı:
**Hurriyyet.az**
E-mail: hurriyyet@mail.ru
**Tiraj: 2500**

**Redaksiyanın ünvanı:**
AZ 1008, Bakı, akademik Ələşrəf Əlizadə küçəsi, 31
Telefonlar: 496-10-72; 496-08-35

Lisenziyanın qeydiyyat nömrəsi: V 165
Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır.
Redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnir və "Futbol+ servis" mətbəəsində çap edilib.

HR Bu işarə altında dərc olunan yazılar reklam xarakterlidir.

Qəzet 1991-ci ildən çıxır.

# İsrail İranın 3 generalını və diplomatlarını öldürdü

## Tehran Təl-Əvivi "qəti cavab" tədbirlərinin görüləcəyi ilə hədələdi



**İsrail İranın Suriyadakı konsulluq binası və İran səfirinin iqamətgahının yaxınlığına hava zərbəsi endirib. Bu barədə İran mediası məlumat yayıb. "Tasnim"in məlumatına görə isə İsrail Dəməşqdə İran səfirliyinin yaxınlığındakı binaya hava zərbəsi endirib.**

Bəzi mənbələr hücumda 6 nəfərin öldüyünü bildirir.

İranın Suriyadakı səfiri Hüseyn Əkbəri bildirib ki, İsrail İranın Suriyadakı konsulluq binası və İran səfirinin iqamətgahının yaxınlığına hava zərbəsi endirib. "Hücumda bir neçə iranlı diplomat və hərbi müşavir həlak olub. Onların adları daha sonra açıqlanacaq", -deyən səfirin sözlərinə görə, "İsrailin bu hərəkəti İranın qəti cavabı ilə nəticələnəcək".

"Hələlik dağıntıların tam təmizlənməsi aparılmayıb və 5-7 nəfərin öldüyünü düşünürük. Dəqiq rəqəmlər daha sonra açıqlanacaq", - deyə o bildirib.

Diplomat qeyd edib ki, iki polis də öldürülüb, hazırda adları açıqlanmayıb.

SEPAH-ın Suriya və Livandakı Baş Qərargah rəisi, briqada generalı Hüseyn Əmirullah da İsrailin Dəməşqə endirdiyi hava hücumunda öldürülüb. Öldürülənlər arasında həmçinin İslam İnqilabı Keşikçilər Korpusunun generalları Məhəmməd Rza Zahedi və onun müavini Hacı Rəhimi də var.

Bu barədə "Sabereen News" bildirib.

Suriya İnsan Haqları Müşahidə Qrupu İsrailin Dəməşqə hücumu nəticəsində SEPAH qüvvələrinin daha 6 üzvünün öldüyünü bildirib.

İran Xarici İşlər Nazirliyinin məlumatına görə, nazir Hüseyn Əmir Abdullahian suriyalı həmkarı ilə telefon danışığında deyib ki, İranın Dəməşqdəki səfirliyinin konsulluq binasına edilən hücuma görə bütün məsuliyyət İsrailin üzərinə düşür.

**KƏNAN**

# Ermənistan müharibəyə hazırlaşır?

## Müdafiə Nazirliyi xəbərdarlıq etdi!



**Son zamanlar Ermənistan-Azərbaycan şərti sərhədinin müxtəlif istiqamətlərində Ermənistan silahlı qüvvələrinin bölmələri və döyüş texnikasının cəmləşdirilməsi barədə 31 mart 2024-cü il tarixində Müdafiə Nazirliyi tərəfindən rəsmi məlumat yayılıb.**

Müdafiə Nazirliyindən bildirilib ki, şərti sərhədboyu Ermənistanın qoşunlarını cəmləşdirməsi və hücum xarakterli dayaq məntəqələrini qurması, müxtəlif istiqamətlərdə uzunmüddətli atəş nöqtələrini yaratması, fortifikasiya qurğularını inşa etməsi bölmələrimizin sərəncamında olan xüsusi texniki vasitələr və vizual müşahidə ilə qeydə alınıb.

Yeni inşa edilmiş dəmir-beton fortifikasiya qurğularında Ermənistan silahlı qüvvələrinin artilleriya sistemləri, digər hücum silahları və ağır atəş vasitələri yerləşdirilir.

"Bir daha bəyan edirik ki, Azərbaycan Ordusu tərəfindən Ermənistanın törədə biləcəyi hər hansı təxribatın qarşısı qətiyyətlə alınacaq, vəziyyətin gərginləşdirilməsinə görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyi və onun havadarlarının üzərinə düşəcək", - məlumatda vurğulanıb.

**Dünən ADP İdarə Heyətinin ölkə və beynəlxalq aləmdə baş verən ictimai-siyasi proseslərə dair növbəti toplantısı keçirilib. Partiyanın mətbuat xidmətindən "Hürriyyət"ə verilən məlumata əsasən, İdarə Heyəti ilk öncə Azərbaycan-Ermənistan arasında sülh danışıqları sahəsində son durumu müzakirə edib.**



# "Rusiyaya bağlı bəzi qüvvələrin müharibə ritorikası..."

## ADP danışıqlar yolunu təklif edir; "Yeni müharibə Azərbaycanın milli maraqlarına uyğun deyil"

Müzakirələr zamanı son günlər Azərbaycan-Ermənistan arasında mövcud olan şərti sərhədə Ermənistan tərəfindən hərbi qüvvələrin cəmləşməsinə diqqət çəkən toplantı iştirakçıları regionda yeni müharibə riskinin yaranmasından narahatçılığını ifadə edib. Hesab edilib ki, Azərbaycanla Ermənistan arasında yeni müharibənin başlanması Azərbaycanın milli maraqlarına uyğun deyil, iki dövlət arasında mübahisəli məsələlər yalnız danışıqlar yolu ilə həll olunmalıdır. Eyni zamanda iki ölkə arasında indiki mübahisəli vəziyyətin uzun müddətli davam etməsinin nəzarətdən çıxan aktiv münaqişəyə çevrilmə riskini, regionda kənar qüvvələrin özlərinin geopolitik maraqlarını təmin etməyə cəhdlər göstərməsini, münaqişəli vəziyyətin hər iki tərəfi silahlanmağa vadar etməsini nəzərə alaraq Azərbaycan-Ermənistan arasında qarşılıqlı etimada əsaslanan sülh sazişinin imzalanmasının vacibliyi qeyd edilib.

İdarə Heyəti son zamanlar ölkə mətbuatında Rusiyaya bağlı bəzi qüvvələrin müharibə ritorikasına diqqət çəkib, bu ritorikanın Azərbaycan üçün təhlükəli gələcək vəd etdiyini bildirirək, yolverilməz olduğunu bildirib.

İdarə Heyəti qonşu Ermənistanın son zamanlar Avropaya və Qərbə doğru inteqrasiya istiqamətində atdığı addımlar ətrafında da fikir mübadiləsi aparıb. Müzakirələrdə qeyd edilib ki, Azərbaycan xalqının da iqtisadi, siyasi və təhlükəsizlik maraqları Qərbə doğru inteqrasiyadan keçir, ona görə də Azərbaycan hakimiyyətinin Ermənistan kimi Avropa və Qərblə əlaqələrini yüksək səviyyədə qurması arzuolunandır.

İdarə Heyəti qardaş Türkiyədə 31 mart tarixində keçirilən bələdiyyə seçkiləri və onun nəticələri ətrafında müzakirələr aparıb. Müzakirələr zamanı bu seçkilərin azad, bərabər, şəffaf və demokratik qaydada keçdiyi bildirilib və Türk xalqının iradəsinin təcəssümü kimi dəyərləndirilib.

İdarə Heyəti son günlər Lənkəran rayon İcra Hakimiyyəti başçısını öldürmək istəyən şəxsin tutulması ətrafında cəmiyyətdə terror təhlükəsi ilə bağlı yaşanan narahatçılıqlara toxunub. İndiki mürəkkəb geosiyasi şəraiti nəzərə alınaraq İdarə Heyəti hakimiyyəti bu cür təhdidlərin qarşısının alınması istiqamətində adekvat tədbirləri görməyə çağırıb.

İdarə Heyəti taksi xidməti ilə bağlı Nazirlər Kabinetinin verdiyi qərardan, yəni yaşı 15-dən yuxarı olan avtomobillərin taksi kimi fəaliyyət göstərməsinə qoyulan qadağadan dolayı bu sahədə çalışan vətəndaşların böyük bir qisminin işsiz qalacağı ilə bağlı yaranmış narahatçılıqlara da toxunub. Qeyd edilib ki, bu xidmət sektorunda fəaliyyət göstərən şəxslərin yeni avtomobillərə əlçatanlığını təmin etmək məqsədilə dövlət həmin şəxslərə güzəştli şərtlərlə yeni avtomobilləri kreditə verməlidir.

İdarə Heyəti Ukrayna prezidenti V.Zelenskinin müəyyən şərtlər daxilində Rusiya prezidenti V.Putinlə danışıqlara hazır olması ilə bağlı verdiyi bəyanata da toxunub. Bu bəyanatı müsbət addım kimi dəyərləndirən İdarə Heyəti Ukrayna ilə Rusiya arasında davam edən və getdikcə daha çox insan fəlakətinə, iqtisadi sarsıntılara yol açan, dünyanı iqtisadi böhranla üz-üzə qoyan, təhlükəli qütbləşmə yaradan, insanlığı nüvə təhdidi ilə hədələyən bu müharibəyə son qoyulması üçün beynəlxalq hüquq normaları çərçivəsində hər iki ölkəni ədalətli sülh danışıqlarına səsləyib.

İdarə Heyəti 31 mart 1918-ci ildə Azərbaycanlıların kütləvi surətdə soyqırım hadisəsinin növbəti ildönümü ilə bağlı fikir mübadiləsi aparıb. Müzakirələrdə bu qanlı hadisə XX əsr tarixinin ən faciəli və dəhşətli hadisələrindən biri kimi dəyərləndirilib. Azərbaycan dövlətinə, ərazi bütövlüyünə və müstəqilliyinə təhlükələrin hələ də mövcud olduğunu qeyd edən İdarə Heyəti xalqımızı daim ayıqsayıq olmağa, bu təhlükələri dəf etmək üçün milli birliyi qorumağa və əsl vətəndaş mövqeyi nümayiş etdirməyə çağırıb.

**Hazırladı: KƏNAN**

Dərddən od tutub yananda beş-altı kəlmə yanıqlı söz işlədən kimi fövrən üzərinə gəlirlər: "Özünü yığışdır, milləti təhqir etmək olmaz". Həmşəri qardaşlarımız demişkən, xeyli xub, amma hələ indiyə qədər eşitmədim ki, bizim millət onu təhqir edib alçaldan bir haramzadanı dar ağacı altına çəksin.





Firuz HAŞIMOV

# Rusiyaya xidmət edən milli telelotularımız...

## Azərbaycanın efirindən Rusiyaya sevgi aşılayan verilişlər yığışdırılmalı, şou-biznes həşəratları rədd edilməlidir

I YAZI

Amma erməni vələdüzina edir... 90-cı illərin əvvəlləri idi... Xankəndində müşavirələrin birində yüksək çinli rus zabiti erməni millətçilərinin ünvanlarına 3-4 ağır söz işlətmişdi. Bu zabitin özü azərbaycanlıların dədə-baba yurdlarından qovulmasına mane də olmurdu. Amma erməni millətçiləri onu məhz təhqiramiz atmacalarına görə Rostovda evində qətlə yetirdilər.

Yanvar qətliamında xüsusi fəallıq göstərmiş neçə-neçə erməni barədə əlimdə tutarlı məlumat vardı. Onu AXC-nin atamanlarına ötürdüm, qatillərin ünvanları dəqiq müəyyən edilmişdi. Komisyon mağazaların, yanacaqdoldurma məntəqələrinin, qorxaq müəssisə rəhbərlərinin qəniminə dönmüş AXC lotlarının tükü də tərpənmədi.

Üst-başlarına "Boz qurd" şəkillərini vurub rayon toyxanalarında atılıb-düşərək, qız-gəlini qorxudan avaralar da, bir qələt edə bilmədilər. Həlledici döyüşlər başlananda bu torpağın oğulları nəyə qadir olduqlarını göstərdilər. Nə savaşda, nə də zəhmət tələb edilən yerdə bir məmur, bir biznesmen, bir partiya bonzunun balası gözə dəymədi. Şəhadətə çatanların içində bir harın balası yox idi. Bu müharibə öz doğma vətənində bir tikə çörək üçün min əzabəziyyət çəkən, aşağı təbəqəyə mənsub olan qeyrət sahiblərinin düşmənə qarşı vuruşu idi. Məhz bu qeyrət sahibləri bütün millətin MÜZƏFFƏR adlandırdığı İlham Əliyevin ətrafında monolit, yenilməz qüvvə kimi durdular. Bütün səlib dünyasının dişlə, dırnaqla qoruduğu erməni giyenasının beli sındırıldı. Sidq dillə inanıram ki, neçə əsr bundan əqdəm cəsarətləri ilə bütün şərqi heyran etmiş Eldəgiz, Səfəvi cəngavərlərinin ruhları "Mərhaba! Afərin!" deyiblər. Axı, gəlin, açıq danışaq. Kimin ağlına gələ bilərdi ki, biz doğma Qarabağı murdarlardan ildırım sürətilə təmizləyəcəyik.

Dəniz kənarında qənimət kimi götürülmüş silahların sərgiyə qoyulması adi məsələ deyil. Bunlar rus irticasının tulalarına verdikləridir. Bu zəhmli zirehli maşınlar, raket qurğuları, tanklar İrəvanda yox, Rusiyanın zavodlarında istehsal olunublar. İllər boyu təpik altında saxladığı xalqlara məğlubedilməzliyini, hamıdan güclü olduğunu təlqin edən rus şovinistləri üçün bu sərgi həqarət idi...

Buna necə dözmək olardı? Dünənə qədər azərbaycanlı rusların yaşaması üçün nəyi vardısa, dinməz söyləməz verib qırmızı bayraqlar altında həqarətə məruz qalmasını görmək belə istəmirdi. O cəllad qalmamışdı ki, adı əbədiləşdirilməsin, təhsil, təlim-tərbiyə işləri də illər boyu elə qurulmuşdu ki, yetişən nəsil doğrudan da dədə-babasının naqis olmağına inanmışdı. Üzə çıxmış tarixi şəxsiyyətlər də elə tərzdə, elə formada təbliğ olunurdular ki, onların hansı məzhəbə qulluq etmələri də bilinmirdi. Azərbaycanın gədalaşmış tarixçiləri, qələm sahibləri Mərkəzi Komitənin göstərişləri əsasında tarixi şəxsiyyətlərə tələb edilən donu geyindirdilər. Bir gün Nəsimini dinsiz göstərdilər, səhəri günü Sabiri... Açıqdan-açığa rus xalqına eşq elan edən şair hər cürə ənamlara layiq görüldü.

...70 il ərzində dini, imanı ələ salınan, mənən xəcil edilməsi ilə barışan xalq qəddini dikəldib mahir SƏRKƏRDƏnin rəhbərliyi altında imperiyanın qudurmuş giyenasının başını əzir, bu azmış kimi, nüvə silahı ilə hamını hədələyən Rusiyanı rüsvay edir. Bəli, bu adi sərgi deyildi. Bu, bütün dünya qarşısında Moskva irticasının xarı-zəlil edilməsi idi. Yəni, budur, bu əbləhlərin tərifledikləri texnika. On illər boyu "çuşka", "baran" epitetləri ilə alçaldılan xalq qulaqburması verməyi də bacarırmış.

Ermənistanın məğlubiyyəti də hamıya göstərdi ki, bundan sonra kim Moskvaya arxalansa, onu da belə fiasko gözləyir. Amma biz sərvaxt olmalıyıq. Çünki Rusiya heç bir vaxt bizi bağışlamayacaq. Bu şər imperiyasının tarixini mən YAP-ın bütün alimnümalarından min qat yaxşı bilirəm.

Putin və onun arxasında duranlar bilirlər ki, indi daha kommunist demoqoqiyası ilə iş aparmaq müşkül məsələdir. "Beynəlmiləlçilik", "qardaşlıq" barədə söhbətlər də işə keçmir. Azərbaycana qarşı isə təxribat böyük vüsət alıb. Deyilənə görə, ölkədə 300-dən çox rusdilli




məktəb fəaliyyət göstərir. Bu məktəblərdə də, bizim gənclərin mənən necə şikəst edilməsi hamıya bəllidir. Yadınıza salın, Bakıda hansısa məktəbin direktorunun sərəncamı ilə uşaqlar sinələrinə "Georgi xaçı"nın lentini taxmışdılar. Bu dağılmışda bir ziyalı dilləndi? Moskva çox yaxşı bilir ki, bizim harınların, iriçaplı məmurların evlərində rus dili hökm-fərmadır. Düşmənə Azərbaycan gəncliyinin ancaq heyvani instinktlərlə yaşayan amorf kütləyə dönməsi lazımdır.

Bu mənfur işdə düşmənə canla-başla xidmət göstərən, çox haqlı olaraq telekanalizasiya adına layiq görülmüş bizim telekanallardır. Heç də səbəbsiz deyildi ki, bu günlərdə Az TV-nin həşəmətli "Həftə"çisi də başda olmaqla, telekanal rəhbərlərini lazımi yerə çağırıb göz ağardıblar. Hətta bu barədə rus dilində çıxan həftəlik "Nedelya" qəzetinin bu ilki 11-ci sayında tutarlı bir məqalə də çap olunub. Yazının adı belədir: "Telekanalizasiya tamaşaçıları nəcasata batırır". Sovet hakimiyyəti dövründə belə məqalə çıxsaydı, Mərkəzi Komitə bir günün içində bütün günahkarların başına itin oyunu açardı. İndi isə telelotuları hara çağırsalar da, nə qədər qınasalar da, bilirəm ki, xeyri yoxdur. İllər, aylar ərzində heç nədən ibrət almayan, millətin dərd-sərinə məhəl qoymayan bu əyalət işbazlarının, mədəniyyət dəllallarının dabbaqda, gönlərinə bələdəm. Bunların sələfləri kommunist rejiminə qulluq etsələr də, sovet məddahı olsalar da, prinsipiallıq göstərib, lap üzə də durardılar. İndikiləri isə ancaq pul düşündürür. Dörd tərəfdən təhdid olunan, onlarla şəhəri, kəndi yer üzündən silinmiş Azərbaycanın efirindən Putin Rusiyasına sevgi aşılayan verilişlər yığışdırılmalı, şou-biznes həşəratları rədd edilməlidir. Bunların bütün fəaliyyəti millətimizin gənc nəslini degenerat görmək istəyən Moskvanın arzuları ilə üst-üstə düşür. Rusiya mətbuatını, telekanalları izləyin, görün orada nələr baş verir. Bəziləri hələ başa düşmürlər ki, minlərlə övladı qurban getmiş Azərbaycanda hər yetəni vətənpərvərlik təbliğatı kimi müqəddəs işə yaxın buraxmağın özü cinayətdir.

Bütün bunlara paralel olaraq, vaxtilə böyük məkrlə sağa-sola paylanmış fəxri adlar mütləq ləğv edilməlidir. Bu adları üzlərinə sipər kimi tutan hər naqis istədiyi oyunu çıxarır və heç kim cürət edib söz deyə bilmir.

Goranboy rayonu, Səfikürd kəndində qeydiyyatda olan Kazımova Zülfiyyə Kazım qızı tərəfindən "Hürriyyət"in redaksiyasına şikayət məktubu daxil olub. Qəzetimiz vasitəsilə Prezident İlham Əliyevə, Birinci vitse-prezident Mehriban Əliyevaya, Baş prokuror Kamran Əliyevə, Xarici İşlər naziri Ceyhun Bayramova, Daxili İşlər naziri Vilayət Eyvazova, Ombudsman Səbinə Əliyevaya və Qırğızıstan Respublikasının Azərbaycandakı səfirliyinə müraciət edən şikayətçinin məktubunu olduğu kimi dərc edirik:




"Dövlət tərəfindən ayrılan vəkil də azərbaycanlıların heç bir sübut olmadan saxlanıldıqlarını və günahsız olduqlarını bildirdi"

# Qırğızıstanda "dövlət çevrilişi" şousu

## Ölkə rəhbərliyinə "sui-qəsd təşkil etmək" ittihamı ilə həbs olunan azərbaycanlıların yaxınlarından rəsmi qurumlara müraciət

**Zülfiyyə Kazımova:** "Oğlum Nicat Behbudov martın 20-də işləmək məqsədilə Qırğızıstana getmişdir"

**Cavid Əlizadə:** "Bizi zəhmətlə böyüdən valideynimə bu cür ittiham ailəmizi çox kədərləndirir"

"Mən, Kazımova Zülfiyyə Kazım qızı, hazırda Hökməli qəsəbəsində yaşayıram. Oğlum Behbudov Nicat Saməddin oğlu 21.08.1992-ci ildə Goranboy rayonunun Səfikürd kəndində anadan olmuşdur. 1-ci sinfi Səfikürd kənd tam orta məktəbində təhsil almış, 2-ci sinifdən 11-ci sinifədək Bakı şəhəri, Binəqədi rayonu, Biləcəri qəsəbəsində yerləşən 301 saylı orta məktəbdə təhsil almışdır. Ailəlidir, 5 yaşında qızı var. Həyat yoldaşı işlamir, heç bir məhkumluğu yoxdur.

Oğlum Behbudov Nicat Saməddin oğlu 24 dekabr 2023-cü ildə işləmək məqsədilə Qazaxıstan Respublikasının Almatı şəhərinə getmişdir. Orada telefon mağazasında işləyirdi. Lakin zəlzələ olduqdan sonra bir müddət orada taksi fəaliyyəti ilə məşğul oldu. 2024-cü il, mart ayının 20-də isə işləmək məqsədilə Qırğızıstan Respublikasına getmişdir.

Lakin, təəssüflə qeyd edirəm ki, mart ayının 21-də, gecə saat 1-2 radələrində oğlumla bərabər taksidə olan 5 nəfər azərbaycanlını səlahiyyətli şəxslər taksidən düşürərək, tutublar.

Həmçinin, oğlum haqsız yerə döyülmüşdür. 5 gündür ki, oğlumla əlaqə saxlaya bilmirəm. Lakin oğlum qardaşına bildirmişdir ki, ondan haqsız yerə, guya, "terroçuluq etməsi ilə bağlı" hər şeyi boynuna götürməsini tələb edirlər. Məhz bu ittihamla da, oğluma haqsız yerə 2 ay həbs cəzası verilmişdir.

Bildirmək istəyirəm ki, oğlum Qırğızıstana yalnız işləyib pul qazanmaq məqsədilə getmişdir. Lakin haqsız yera tutularaq həbs edilmişdir.

Yuxarıda göstərilənləri nəzərə alaraq, Sizdan xahiş edirəm ki, oğlum Behbudov Nicat Saməddin oğlunun azad edilərək Azarbaycan Respublikasına gətirilməsi üçün köməklik göstərəsiniz".

### "Biz dövlətimizə güvənirik"

Qeyd edək ki, saxlanılan şəxslərdən daha birinin - Əliyev Vüqar Sultan oğlunun yaxını - oğlu Əlizadə Cavid Vüqar oğlu "Hürriyyət"ə müraciət edib. Qəzetimiz vasitəsilə sözünü ölkə rəhbərliyinə çatdırmaq istəyən C.Əlizadə atasının günahsız olduğunu iddia edir:

**"Cənab Prezident!**

Qırğızıstanda tutulmuş 5 nəfər Azərbaycan vətəndaşı ilə əlaqədar Sizə müraciət edirəm. Çünki orada günahsız şəkildə tutulanlardan biri mənim valicür ağır ittihama məruz qoyulduğunu ortaya çıxaracaq. Odur ki, biz Sizlərə - dövlətimizə güvənirik.

**Cənab Prezident!**

Mən xaricdə təhsil aldığım zaman dövlətimizi layiqincə təmsil etməklə bərabər, tariximizi digər xalqlara çatdırmışam. Bizi zəhmətlə böyüdən valideynim Vüqar Əliyevdir.



Mövzu ilə əlaqədar özümüz də kifayət qədər araşdırmalar aparırıq. Qeyd edilən ittiham çox ağır ittihamdır və orada olan 5 nəfərin də belə bir ittihama sübutsuz məruz qalmasını doğru qəbul etmirəm. Heç bir məhkəmə aparılmadan, istintaq getmədən və məhkəmə qərarı sübutlu və əsaslı şəkildə ortaya çıxarılmadan şəxslərin hər birinin üzlərinin paylaşılması, məxfiliyinin pozulması, insan hüquqlarının pozulması ilə bağlı olan məsələlərdən əlavə, onların bu formatda tutulması və bu cür ağır ittihama məruz qalması ailəmiz tərəfindən çox kədərlə qarşılanıb.

Dövlət tərəfindən verilən vəkillə danışıq zamanı da o, azərbaycanlıların heç bir sübut olmadan saxlanıldıqlarını və günahsız olduqlarını bildirdi. Əlavə olaraq, dövlətimizdən kömək istəməyimizi məsləhət bildi.

İnanırıq ki, bu mövzunun düzgün şəkildə araşdırılması mənim valideyinimdən əlavə, eyni vaxtda respublikamızın vətəndaşlarının əsassız olaraq bu cür ağır ittihama məruz qoyulduğunu ortaya çıxaracaq.

... nimə bu cür ittiham bizi çox kədərləndirir. Sizin bu mövzuda bizə kömək edəcəyinizə inanıram və güvənirəm".

Xatırladaq ki, Qırğızıstanın Milli Təhlükəsizlik Komitəsi "cinayətkar qruplaşma"nın üzvü olmaqda şübhəli bilinən 5 Azərbaycan vətəndaşının saxlanılması ilə bağlı məlumat yayıb. Bildirilib ki, Əliyev V.M., Bağırov S.A., Əsgərov M.O., Behbudrov M.S., Məmmədov Z.İ. yüksəkvəzifəli şəxsə qarşı cinayətə hazırlaşırmış. Onlardan Əsgərov M.O.-nun kriminal aləmdə tanınmış şəxs olması və Qırğızıstan dövlətinin cinayətkarlığa qarşı apardığı fəal mübarizə siyasətinə görə ölkə rəhbərliyinə sui-qəsd təşkil etmək məqsədilə Qırğızıstana gəlməsi iddia edilib.

Hazırda əməliyyat-istintaq tədbirləri davam etdirilir.

**Hazırladı: Jalə FAMİLQIZI**

***Redaksiyadan: Mövzunu diqqətdə saxlayacağıq. Rəsmi qurumların da mövqeyini dərc etməyə çalışacağıq.***

# FETÖ ilə əlaqədə şübhəli bilinən şəxsə qarşı ittiham aktı...



**Azərbaycanda FETÖ-yə qarşı keçirilən əməliyyat zamanı həbs edilənlərdən biri - Döyrüş Cəfərovun cinayət işi üzrə məhkəmə istintaqı başlayıb.**

Abşeron Rayon Məhkəməsində keçirilən iclasda prokuror ittiham aktını elan edib.

D.Cəfərov Azərbaycandakı təhsil və təlim mərkəzlərində uzun müddət təşkilatın təbliğatını aparmaq, gənclərin təşkilata üzv olması istiqamətində addımlar atmaqda təqsirləndirilir.

Onun ünvanında aparılan axtarışlar zamanı FETÖ ideyalarını yayan radikal dini sənədlər, o cümlədən FETÖ ideyalarından bəhs edən slayd və odlu silah tapılıb. Qeyd olunan əməllərə görə, ona qarşı Cinayət Məcəlləsinin 167.1-ci (dinə etiqad etməyə məcbur etmə) və 228-ci (qanunsuz soyuq silah gəzdirmə) maddəsi ilə ittiham irəli sürülüb, barəsində həbs qətimkan tədbiri seçilib.

Müttəhim Cəfərov ittihama münasibətdə özünü təqsirli bilməyib. Deyib ki, onun sözügedən məsələlərdən xəbəri yoxdur: "FETÖ işi ilə bağlı digərləri tutulanda mən Almaniyanın Frankfurt şəhərində idim. Buna baxmayaraq ölkəyə qayıtdım. Təqsirim olsaydı, qayıtmazdım. Mən ziyalı bir adamam, xarici ölkələrdə təhsil almışam. Mənə aid olan yalnız içində Fetullah Gülən ideyalarından da bəhs edilən slayddır".

Proses şahid ifadələri ilə davam edir.

Qeyd edək ki, Daxili İşlər Nazirliyi (DİN) ötən il FETÖ-yə qarşı xüsusi əməliyyat keçirib. Əməliyyatla FETÖ-nün Azərbaycandakı keçmiş rəhbərlərindən olduğu iddia edilən Döyrüş Cəfərov, təşkilatın maliyyə işlərinə cavabdeh Gümrah Əbdürəhmanov, "Yurd" mərkəzinin direktoru Ruslan Əliyev və təşkilati işlərə cavabdeh şəxs Anar Əliyev həbs ediliblər.

Hürriyyət
MEDİA
SİZİN ÜÇÜN QƏZET
№12 (3303) 2 Aprel / 2024-cü il
www.hurriyyet.az; / hurriyyet@mail.ru


Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi
İctimai və dövlət maraqlarının müdafiəsi

# "Brüssel görüşü yaxınlaşdıqca Rusiyanın Paşinyana təzyiqi artır"



**Bir neçə gün sonra, daha dəqiq desək, aprelin 5-də Ermənistanın baş nazir Nikol Paşinyan, Avropa Komissiyasının sədri Ursula fon der Leyen və ABŞ dövlət katibi Antoni Blinken Brüsseldə görüşəcəklər. Bu barədə verilən məlumata görə, onlar Ermənistanın inkişafına töhfə verəcək üçtərəfli əməkdaşlığın yollarını müzakirə edəcəklər. Qeyd edək ki, Ermənistanın Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan da sözügedən tədbirin ölkəsinin müqavimətini gücləndirmək məqsədi daşıdığını bildirib.**

Brüsseldə keçiriləcək Aİ-Ermənistan-ABŞ müştərək konfransı ilə bağlı açıqlama verən Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) mətbuat katibi Ayxan Hacızadə isə haqlı olaraq qeyd edib ki, Azərbaycan 30 ilə yaxın silahlı təcavüzün, işğalın və etnik təmizləmənin qurbanı olduğu halda və hətta BMT Təhlükəsizlik Şurasının Ermənistanın işğalçı qüvvələrinin dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnaməsinə baxmayaraq, heç zaman Aİ və ABŞ-dən bu formada qeyd-şərtsiz dəstək almayıb. XİN rəsmisinin sözlərinə görə, Azərbaycan tərəfi dəfələrlə Avropa İttifaqının, xüsusilə də onun bəzi üzv dövlətlərinin regionumuza münasibətdə müəyyən yanaşmaları və fəaliyyətləri ilə bağlı öz mövqeyini açıq şəkildə ifadə edib: "Bu bir faktdır ki, Azərbaycanla Ermənistan arasında davam edən sülh prosesi Azərbaycan tərəfindən irəli sürülüb və burada o, münaqişədən sonrakı normallaşmanın bütün məsələlərində hər zaman konstruktiv mövqe nümayiş etdirib. Bundan əlavə, 6 oktyabr 2022-ci il tarixli dördtərəfli Praqa görüşü zamanı delimitasiya edilməmiş sərhədin Ermənistan tərəfi boyunca Azərbaycan və Ermənistan arasında etimadın yaradılmasına töhfə verməsi güman edilən 40 nəfər mülki monitorinq ekspertindən ibarət qısamüddətli Avropa İttifaqı Monitorinq Potensialının (AİMP) yerləşdirilməsinə razılıq verilməsi Azərbaycan tərəfindən xahiş olunub". Ayxan Hacızadə təəssüflə bildirib ki, ilkin iki aylıq müddətdən sonra Azərbaycanın razılığı olmadan AİMP əhəmiyyətli dərəcədə uzadılmış müddət və daha çox müşahidəçi sayı ilə Aİ-nin Ermənistandakı Missiyasına (AİEM) çevrilib: "Bu missiya o vaxtdan etibarən anti-Azərbaycan təbliğat aləti kimi fəal şəkildə istismar edilməkdədir. Bundan əlavə, Kanadanın AİEM-ə qoşulması ilə o, de-fakto NATO missiyası xüsusiyyətinə malikdir. Bu addımlar həmçinin AİEM-i çəkindirici qüvvə adlandıran və heç bir əsas olmadan Azərbaycanın mümkün müdaxiləsi barədə illüziya yaradan bəyanatlarla müşayiət olunur. Beləliklə, AİEM-in bəyan edilmiş mandatına uyğun olaraq, tam şəkildə neytral, mülki və silahsız missiya kimi fəaliyyət göstərməsini, habelə Azərbaycanın suverenliyinə, ərazi bütövlüyünə qarşı yönəlmiş və ya onun legitim təhlükəsizlik maraqlarına bu və ya digər şəkildə təsir edəcək istənilən fəaliyyətdən çəkinməsini təmin etmək üçün bütün zəruri tədbirlərin görülməsi məqsədilə Aİ tərəfinə ciddi şəkildə çağırış edilib".

O əlavə edib ki, narahatlıq doğuran digər məsələ Fransanın irəlilətdiyi, Ermənistanın hərbiləşdirilməsinə yönəlmiş və daha böyük hərbi təchizatlara (öldürücü və hücum tipli silah növləri daxil olmaqla) dair yeni vədlərin də yer aldığı kampaniyadır: "Aİ-nin digər bir üzvü Yunanıstan bu yaxınlarda Ermənistanla hərbi əməkdaşlığın dərinləşdirilməsi ilə bağlı bəyanatlar verib. Bundan əlavə, Avropa Sülh Fondu çərçivəsində Ermənistana hərbi yardımın göstərilməsi planları və aprelin 5-də keçiriləcək toplantının hərbi komponentləri nəzərdə tutduğuna dair məlumatlar əlavə narahatlıq doğurur və regionda sülh quruculuğu səylərinə xələl gətirir".

**Moskva Ermənistandakı səfiri vasitəsiylə Paşinyana ciddi xəbərdarlıq edib**

Beləliklə, "Hürriyyət" xəbər verir ki, mövzu ilə bağlı mövqeyini bölüşən "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu hesab edir ki, 5 aprel tarixi yaxınlaşdıqca Rusiyanın Ermənistanın baş naziri Nikol Paşinyana təzyiqi artır: "Moskvada hesab edirlər ki, 5 aprel tarixində Brüsseldə Paşinyanla görüşəcək ABŞ və Avropa İttifaqı rəsmiləri Ermənistana təhlükəsizlik təminatı verəcəklər. Bu isə Rusiyanın Ermənistanda sıxışdırılmasının rəsmi elanı olacaq. Bu arada, Kreml Ermənistandakı səfiri Sergey Kopırkin vasitəsilə Paşinyana xatırladıb ki, Rusiya sərhədçilərinin Ermənistan və Azərbaycan sərhədində yerləşdirilməsini və sərhəddə müşahidə postları quraşdırılmasını onlardan məhz Ermənistanın baş naziri xahiş edib. Buna baxmayaraq, Kopırkin Paşinyana onu da xatırladıb ki, erməni tərəfi heç vaxt Rusiya müşahidə məntəqələrinin yerləşdirilməsini qanuniləşdirmək istəməyib. Yəni, səfir Paşinyana demək istəyib ki, Ermənistan sərhəddini Azərbaycanın həmləsindən Rusiya qoruyub. Rusiya səfirinin başqa bir xəbərdarlığı ABŞ rəsmilərinin bəyanatları ilə bağlıdır: "ABŞ-ın Ermənistanla münasibətlərə məhz Rusiya və İranla qarşıdurma kontekstində baxması çox pisdir, çox təhlükəlidir. Bu, həqiqətən də bizim münasibətlərimizə real xələl gətirə biləcək bir məsələdir". Rusiya Ermənistandakı səfirini yenə ona görə danışdırıb ki, Nikol Paşinyan 5 apreldə Brüssələ gedərkən Moskvanın Ermənistan üçün etdiklərini və edə biləcəklərini unutmasın".

**"ABŞ, Avropa İttifaqı və ya Fransa Rusiyadan hələ qopmayan, Rusiya hərbi bazasını və sərhədçilərini çıxarmayan Ermənistana necə təhlükəsizlik təminatı verəcək?"**

"Atlas" Araşdırmalar Mərkəzinin rəhbərinin sözlərinə görə, Brüsseldə 5 apreldə Ermənistanın baş naziri Nikol Paşinyanla görüşəcək amerikalı və avropalı rəsmilərin ona ölkəsi üçün təhlükəsizlik təminatı verəcəyi məlumatları geniş yayılıb: "ABŞ və Avropa İttifaqı heç onlara daha yaxın Ukraynaya təhlükəsizlik təminatı verə bilmirlər, bunu Ermənistan üçün necə həyata keçirəcəklər? Doğrudur, bır sıra Qərb dövləti Ukrayna ilə təhlükəsizlik sahəsində ikitərəfli əməkdaşlıq sazişi imzalayıb. Ancaq bu sazişlər deklorativ xarakter daşıyır. Həmin sazişlər Ukraynanı Rusiyanın hücumlarından qorumur. ABŞ və Avropa İttifaqı və ya Fransa eyni sazişi Ermənistanla imzalaya bilərlər. Ancaq həmin sazişlər də işləməyəcək. Çünki Ermənistan-Azərbaycan sərhədi müəyyənləşməyib, sülh sazişi imzalanmayıb. Digər tərəfdən, Vaşinqton, Brüssel və ya Paris Rusiyadan hələ qopmayan, Rusiya hərbi bazasını və sərhədçilərini çıxarmayan Ermənistana necə təhlükəsizlik təminatı verəcək, belə bir təminat verilsə belə, bunu necə reallaşdıracaqlar? Bir ölkədə bir-birinə zidd qüvvələrin - həm Rusiyanın, həm də ABŞ və ya Fransanın hərbi bazalarının mövcudiyyətini təsəvvür etmək çətindir. Doğrudur, indinin özündə Ermənistanda Rusiyanın hərbi bazasıyla yanaşı, Avropa İttifaqının, əsasən Fransanın müşahidəçi missiyası var və hələ ki, bir-birlərinə mane olmurlar. Ancaq həmin müşahidəçi missiya silahlı deyil və Ermənistanın təhlükəsizliyinin təminatçısı deyil".

**"Ermənistandakı Rusiyaya bağlı güclərin məqsədi 4 kəndi qorumaq deyil, Paşinyanı devirməkdir"**

Ermənistanın sərhəddə yeni qüvvələr toplamasına da toxunan politoloqun fikrincə, bunu müxtəlif ehtimallarla əsaslandırmaq mümkündür: "Birincisi, Nikol Paşinyan 4 kəndin qaytarılması mövzusunu 5 apreldə Brüsseldə müzakirə etmək istəyir, veriləcək məsləhət əsasında qərar verəcək, buna qədər isə sərhədi möhkəmləndirmək qərarını verib. Görünür, Paşinyan bu qənaətdədir ki, Azərbaycanın 4 kəndi geri qaytarmaq üçün çox gözləmək fikri yoxdur. Həqiqətən aprel ayında məsələ həll olunmalıdır. Yaxşı olardı ki, Paşinyanla Brüsseldə görüşən rəsmilər ona kəndlərin geri qaytarmaq məsələsini çox uzatmamağı məsləhət görərdilər. İkinci ehtimal Paşinyanın Ermənistan ordusuna tam nəzarət edə bilməməsiylə bağlıdır və baş nazirin orduda "5-ci kolon" adlandırdığı güclər Azərbaycana qarşı təxribat planlaşdırırlar. Ermənistandakı Rusiyaya bağlı güclərin sərhəddəki erməni zabitlərinə "Paşinyanın əmrini yerinə yetirməyin" çağırışları da bundan xəbər verir. Ermənistan ordusundakı "5-ci kolon"un məqsədi 4 kəndi qorumaq deyil, onsuz da bunu bacarmayacaqlar, Paşinyanı devirməkdir".



Elxan Şahinoğlu: "ABŞ, Avropa İttifaqı və ya Fransa Ermənistanla ikitərəfli əməkdaşlıq sazişi imzalasa belə, həmin sazişlər işləməyəcək"

**Vazeh BƏHRAMOĞLU**

**Cəmiyyətimiz üçün önəmli, əhəmiyyəti olan bir sıra sahələrdəki fəlakətli vəziyyətlərin səbəblərini soraqlayaraq, bu vəziyyətdən israrla çıxış yollarını arayan İ.Sabirqızının bu fədakar fəaliyyətini ancaq təqdir edib, alqışlamaq olar.**

# Problemlərin kökü harda gizlənir?




Öncə İ.Sabirqızının "Hürriyyət" qəzetinin 12.03.2024-cü il sayında bir çox sahələrdəki mövcud problemlər və onların aradan qaldırılması üçün həyata keçirilməli olan tədbirlər barədə, Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiyasının eksperti, "Konstitusiya" Araşdırmaları Fondunun prezidenti, Daxili İşlər Nazirliyi yanında İctimai şuranın sədri Əliməmməd Nuriyevlə geniş müsahibəsini əhatə edən, "Azərbaycanda təkrar cinayətkarlığın artması üçün münbit şərait var" adlı yazısında Ə.Nuriyev deyir; - Cinayətin təkrar törədilməsi o deməkdir ki, bunun üçün münbit şərait var. Eyni zamanda ümumiyyətlə cinayətkarlıq özü sosial bir hadisədir. Ona görə də, hər şeydən əvvəl bunun sosial köklərini araşdırmaq lazımdır". Lakin o ancaq bütün müsahibə boyu, "vacibdir", "olmalıdır", "hazırlanmalıdır" kimi ümumi ifadələr vasitəsilə cəmiyyətimizin bütün sahələrini daim, gecə-gündüz həm də mövcud quruluşda həlli mümkün olmayan problemlərlə təchiz edən "problem ağacının" nəinki köklərinə, hətta gövdəsinə belə toxunmadan, onun budaqların adını sadalamaqla, problemin həllinin ağacın yarpaqlarından və meyvəsindən asılı olduğunu deyir. Sonra da, - "Dövlətin də taleyi hər şeydən əvvəl əhalinin texniki təfəkkürünün nə səviyyədə olmasından asılı olacaq"ını iddia edir.

Ortaya belə bir sual çıxır ki, cəmiyyətin mövcudluğunun əsasını təşkil edən iqtisadi sistemdə eybəcərliklər qaldıqca, bu əsasda yaranan çoxsahəli və mürəkkəb ictimai prosseslərin dərk edilib, normal qaydalarda idarə edilməsini təmin edən elmi, o cümlədən texniki təfəkkür ölkədə necə meydana gələ, yetişə və bu texniki təfəkkürün reallaşdırılması necə baş verə bilər? Daha sonra o yazır, - "Məhbusların düzgün həyata qayıtması üçün onlara imkanlar verməliyik, onları cəmiyyətdən təcrid etməməli, itələməməliyik. Bu həm dövlət orqanlarının, həm özəl sektorun üzərinə düşən məsuliyyətdir. Hesab edirəm ki, bu məsələyə də cavabdehliklə yanaşmalıyıq".

Ortaya çıxan sual isə bundan ibarətdir ki, qanunla 8 saatlıq iş günü müəyyən edildiyi halda insanları 15-16 saat qul kimi işlədib, onun minimum mövcudluq tələbini ödəməyən əmək haqqı verildiyi halda bütün qiymətlərin, o cümlədən gündəlik tələbat mallarının, kommunal xərclərin kosmik sürətlə artması, rüşvətin, korrupsiyanın, qanunsuzluğun, məmur özbaşınalığının heç bir həddinin olmaması, günahsız insanların saxta bəhanələrlə zindana atılıb, böyük cinayətlər törətmiş məmurlara cəzasızlıq şəraiti yaradılan cəmiyyətdə nəyə cavabdehliklə yanaşmaq olar? Müsahibənin əvvəlində məsələnin kökünü axtarmağın zəruriliyini deyən Ə.Nuriyev, - "Şübhəsiz, o yerdə ki, baxımsız, çətin şəraitdə yaşayan uşaqlar var, onlarla xüsusi olaraq sosial işçilər, psixoloqlar, reabilitasiya mərkəzləri məşğul olmalıdır", - deyərək, səbəblə yox, nəticə ilə, yəni problemi yaradan amilin kökü ilə deyil, nəticəsi ilə məşğul olmaqdan söhbət açır. Sonda - "Amma yeni rəhbərliyin gəlməsi ilə bu məsələlərə çox ciddi bir yanaşmanın şahidi olduq. İstər müalicə mərkəzində, istər digər cəzaçəkmə müəssisələrində imtiyazlı kameralar, imtiyazlı məhkumlar məsələsi ləğv olunur", - deməsi isə ölkədəki zindanların fəaliyyətinə, vəziyyətinə bələd olanlarda ancaq istehzalı gülüş doğurur.

"Hürriyyət" qəzetinin 20.02.2024-cü il tarixli sayında İ. Sabirqızının "Narkoman valideyinlərin uşaqları onlardan uzaqlaşdırılmalıdır", - başlıqlı yazısında Pərvanə Baxşəliyeva ilə müsahibəsində narkomnaların müalicəsi, sağaldıqdan sonra onların iş ilə təmin edilməsinin çətinliyindən, onların uşaqlarının da valideyinləri ilə birlikdə narkotik maddələrin aludəçisinə çevrilməsindən bəhs edir. Bu bəlanın aradan qaldırılmasında Pərvanə xanım mütəxəssis kimi təklif olaraq, narkoman valideynlərin uşaqlarının onlardan uzaqlaşdırılması və narkomanlar müalicə olduqdan sonra, onların işə bərpası üçün qanun qəbul edilməsini irəli sürür. Həm də bu sahədə dövlətin böyük addım atmalı olduğunu bildirir. Lakin bu "böyük addımın" konkret məzmununun nədən ibarət olması, hansı mənbələrdən maliyyələşdirilməsi, icraçı, nəzarətçi qurumlar və s. haqqında heç nə demir.

Birincisi, uşaqların narkoman valideynlərdən uzaqlaşdırılması, həmin uşaqların həyatının bütün sahələrindəki təminatının dövlətin öz üzərinə götürməsi deməkdir. İkincisi, mövcud qanunvreiciliyə əsasən, cinayət törədib işdən uzaqlaşdırılmış şəxsin hər hansı bir müəssisənin icbari şəkildə təkrar olaraq işə qəbul etməsi haqqında qəbul ediləcək qanunun özü konstitusiyaya zidd olan qanunsuz qanun deməkdir. Həm də bu təkliflər nağıllarda kəsilmiş başının əvəzində yerində dərhal doqquz baş bitən əjdaha ilə nəhayətsiz və səmərəsiz vuruşmaq anlamına gəlir. Belə ki, hər bir bəlanın nəticəsi ilə yox, onun kökü, mənbəyi ilə mübarizə aparıb qalib gəlmədən, bəlanı yox etmək mümkün deyil.

Bu yaxınlarda "Hürriyyət" qəzetində adını unutduğum müəllifin məqaləsində narkotika ticarətinin təşkilatçılarının müəyyən edilərək cəzalandırılmasının zəruriliyi haqqında da fikirlər irəli sürülürdü. Əgər nəzərə alsaq ki, cəmiyyətdə baş verən bütün iqtisadi-ictimai proses və hadisələrin mütləq əksəriyyətinin məzmun və mahiyyəti mövcud dövlət quruluşunun məzmun və mahiyyətindən yaranır, təkcə narkomaniya deyil, aşağıda toxunacağım bir neçə sahə də daxil olmaqla, ölkədə bu günə mövcud olan iqtisadi-ictimai quruluş kökündən, əsaslı şəkildə dəyişmədikcə həyatın heç bir sahəsində irəliyə hər hansı bir əhəmiyyətli dönüşə nail ola bilməyəcəyik. Ən diqqət çəkən də budur ki, təkcə problemlərin iqtisadi, hüquqi, inzibati sistemdən qaynaqlandığını bilməyən jurnalistlər, həkimlər bu problemlərin kökləri nəzərə alınmadan ancaq adi gözlə görünən nəticələri ilə mübarizə üsul və formaları təklif etdiyindən çox vaxt yanılırlar. Çünki iqtisadi-ictimai quruluşun məzmun və mahiyyətindən qaynaqlanan problemlərin insan orqanizmində təsadüfdən yaranan xoşxassəli şiş yox, ancaq orqanizmdə yaranıb, kök salmış bədxassəli şişlə müqayisə etmək olar.

Ölkədəki narkotik vasitələrin peyda olmasının ancaq iki yolu var. Onun kiçik bir hissəsi ölkə daxilində istehsal edilir. Narkotik məhsulların daxili istehsalının "hesabat" xatirinə dövlət orqanları tərəfindən müəyyən "doza" həddində qarşısı alınsa da, istehsalın əsas hissəsi üzərində dövlət orqanlarında olan yetərincə mötəbər dövlət məmurlarının himayəsi mövcud olduğundan narkotik məhsulların istehsalının qarşısını almaq mümkün olmur. Ən çox, yəni çəkisi tonlarla ölçülən narkotik malların ölkəyə varid olması da məhz gömrük və sərhədd xidməti orqanlarında oturan böyük vəzifə sahiblərinin xeyir-duası olmadan ötüşmür. Çünki qadağan edilmiş hər hansı kiçik həcmli bir malı, o cümlədən narkotik vasitələri bu iki dövlət xidmətinin xəbəri, razılığı, köməyi olmadan xaricdən gətirib, ölkə ərazisinə keçirə bilmək mümkün deyil. Belə ki, bunun üçün bu xidmət orqanları bu sahədə öz xidməti vəzifəsini ən yüksək səviyyədə yerinə yetirməyə lazım olan, həm say, həm də keyfiyyət etibarilə yetərincə texniki və digər vasitələrə malikdirlər. Ölkə ərazisində həmin narkotik vasitələrin satışı və istifadəçiləri barədə dəqiq məlumatlar da, hər bir inzibati ərazi üzrə dövlət orqanlarında mövcuddur. Bu məlumatlardan istifadə edərək narkotik maddələrin yayılmasının qarşısının alınmasının qarşısında duran əsas maneə də narkotik materialların ölkə daxilində istehsal edilməsi, xaricdən gətirilməsinin dövlət orqanlarında oturan yüksək vəzifəli himayədarların "narkotika biznesi" maraqlarıdır.

Cəmiyyətdə "narkomaniyaya qarşı mübarizə getməsi" haqqında təsəvvür, görüntü yaratmaq, ictimaiyyətin gözünə kül üfürərək, onun nəzərini həqiqi, real səbəblərdən yayındırmaq xatirinə onların birbaşa himayəsində olmayan "xırda balıqları" və onlar üçün əhəmiyyət kəsb etməyən narkotik maddə istifadəçilərini bir müddətə istirahətə göndərirlər. Hətta bu məsələdə də "istirahət müddəti və növü" onların ödəyə biləcəyi pulun miqdarından asılı olur. Məhz bu səbəbdən də bu məsələnin dərinliyində gizlənən köklü səbəblərdən xəbərsiz olduğundan və ya "ilanın quyruğunu tapdalamaq"dan ehtiyatlanan mütəxəssislərin, jurnalistlərin, hamının əyani olaraq gördüyü, yəni adi gözlə görünən nəticələrini müzakirə edib, populist təkliflərdən ibarət yazıları KİV-lərdə tirajlanaraq, əslində, böyük və cinayətkar biznes sahiblərinin milyonlarla, milyardlarla ölçülən, çirkli qazanclarının qurbanlarını həm də "günah keçisinə" döndərməklə onların cinayətlərini ört-basdır edirlər.

Hər bir cəmiyyətdə mövcud olan iqtisadi-ictimai quruluş nə qədər mürtəce olursa, cəmiyyətin bütün sahələrində bu quruluşun mürtəceliyindən doğan köklü iqtisadi-ictimai problemlər insanların normal həyat sürmə imkanlarını bir o qədər çox əngəlləyirlər.

İ.Sabirqızının "Hürriyyət" qəzetinin 30.01.2024-cü il sayında "Məktəblər artıq nə təhsil, nə də tərbiyə verir" başlıqlı yazısında tanınmış təhsil eksperti Kamran Əsədovdan aldığı müsahibədə də təkcə millət və dövlət olaraq gələcək nəslimizin davamçıları olan yeni nəslimizin həyatın bütün istiqamətləri üzrə bünövrəsini qoymalı olan orta təhsil məktəblərindəki real vəziyyətin araşdırılmasında bir sıra məqamlar obyektiv təsvir edilsə də, bu acınacaqlı vəziyyəti yaradan əsil səbəblər haqqında heç nə deyilmir. Kamran bəy "direktorların öz öhdəliklərini yerinə yetirməkdə problem yaşadıqlarını", məktəblərdə özbaşınalığın hökm sürdüyünü haqlı olaraq qeyd etdikdən sonra, qəribə olsa da, o şagirdlərin təlim-tərbiyəsindəki səviyyənin aşağı olmasının səbəbini ölkədə orta məktəblərdə olan müəllimlərin 81 faizinin qadın, cəmi 19 faizinin kişi olması, qadınlarda da zəhmin olmamasında görür.

Kamran bəy iddia edir: "Yəni artıq uşaqlar qorxmurlar, çəkinmirlər, xarakter formalaşması yoxdur. Mən demirəm ki, qadın xaraktersizdir. Amma etiraf edək ki, qadın və kişi fərqli-fərqli xarakterlərdir", "Bizim vaxtımızda dəhlizdə bir kişi müəllim görəndə qorxumuzdan tərpənə bilməzdik", "Ötən gün bir video çəkilmişdi, müəllim uşağın üstünə qışqırmışdı, kobud söz demişdi. Sözdür də, evdə valideyniniz sizə qışqırmayıb? Mənimki qışqırıb. Bu adam həm də müəllimdir. Siz ev yeməyi yeyirsiniz, deyirsiniz ki, ev yeməyi yaxşıdır. Onda evdə təhsil verin də. Evdə təhsil verə bilmirsiniz ki. Bunun öhdəliyini məktəb yerinə yetirir. İmkan verin yerinə yetirsin də. Əslində hansı valideyin ki, "mənimlə bərabər uşaq böyütmüsən?" deyə müəllimin üstünə gəlir, onda övladını məktəbə qoymasın, evdə təhsil versin".

Təhsil ekspertinin orta məktəblərdə təhsilin və təlim-tərbiyənin aşağı, əslində fəlakətli vəziyyətdə olmasının səbəbini uşaqların mülələmdən daha qorxmaması amilində görür. Bundan sonra 200 il öncə valideyn uşağını mollaxanaya gətirib, "molla uşağın əti sənin sümüyü mənim" kimi deməli olduğunu, mollanın da, uşağın yalın ayağını falaqqaya qoyub, çubuqla vuraraq tərbiyələndirməli olduğunu desə belə təəccüblənmək mümkün deyil.

Görəsən Pedaqoji Universitetə qızların qəbulunu dayandırıb, boksçu və qaydasız döyüş üzrə çempionları bu universitetlərdə təhsil aldıqdan sonra, orta məktəbdə qadın mülələmləri də onlarla əvəz edib, hərəsinin əlinə bir zopa da versək orta məktəblərdəki təlim-tərbiyə işlərində müsbət, yəni, müasir təhsilin tələblərinə cavab verən bir irəliləyiş ola bilərmi? Sizləri bilmirəm, məni isə buna inandırmaq mümkün deyil.

***(Ardı var)***

**Şapur QASİMİ**

# Birinci qrup əlil Əlillərin Bərpa Mərkəzindən qovuldu

**Aydın Hüseynov:** "İqbal müəllim məni dinləmədi, mənim müalicələrimi dayandırdı və məni müalicə müəssisəsindən qovdu..."




**Lənkəran şəhəri, Fizuli küçəsi, ev 170-də yaşayan Hüseynov Aydın Mirzə oğlu tərəfindən "Hürriyyət" qəzetinin redaksiyasına şikayət məktubu daxil olub. O, Lənkəran Əlillərin Bərpa Mərkəzindən narazılığını bildirir:**




"Mən, Hüseynov Aydın Mirzə oğlu, əlilliyi olan şəxsəm. İki ayağım dizdən, sol əlimin isə barmaqları amputasiya olunub. Neçə illərdir əlillər üçün yaradılan reabilitasiya bərpa mərkəzlərində növbəli əsaslarla müalicə almışam.

Mart ayının 18-də Lənkəran Əlillərin Bərpa Mərkəzinə getdim. Mənim kimi xəstələrin dərdini ancaq bu halda olanlar bilər. Necə ağrılar olurg Hər zaman kiminsə baxımına möhtac adamlarıq.

Mart ayının 19-da, səhər saatlarında mənə dedilər ki, mərkəzin rəhbəri İqbal müəllim sizi çağırır. Otağına daxil olan kimi mənimlə çox sərt danışdı. Sanki qabağında sağlam adam var idi, yaxud da uşaqla söhbət edirdi. Mən onu təmkinli olmağa və aydın danışmağa səslədim. Lakin o, buna məhəl qoymadan məni təhqir etməyə başladı. Məni otaqda siqaret çəkməkdə və yerə su dağıtmaqda günahlandırdı. Məlum oldu ki, xadimə Dilruba xanım və tibb bacısı Fəridə xanım otaqda su dağıtmağımı və əlavə olaraq otaqda siqaret çəkməyimi yalandan rəhbərliyə çatdırıblar. İqbal müəllim də heç nəyi araşdırmadan mənə qarşı ədalətsiz qərar verdi.

Məlumat üçün bildirim ki, çaydana su tökərkən yerə az miqdarda su dağılmışdı. Otaqda siqaret çəkməyim haqda iddialar isə mənə böhtan idi.

Suyun dağılmasının səbəbini İqbal müəllimə izah etməyə çalışsam da, bunu qəbul etmədi. Bir əlimin barmaqları amputasiya olunduğu üçün su qabı əlimdən sürüşdü. Bunu böyüdüb, bir xəstə insanla bu cür rəftar edən həkimə dövlət bir qurumun idarə olunmasını və xəstə insanlara xidmət göstərməyi necə tapşırıb?

Mən bunları İqbal müəllimə izah etməyə çalışsam da, o, məni dinləmədi, mənim müalicələrimi dayandırdı və məni müalicə müəssisəsindən qovdu. Onun bu davranışı mənə çox mənfi təsir göstərmiş və səhhətimdə ciddi problemlər yaratmışdır. Təzyiqim, şəkərim yüksəlmişdir. Həmin gündən ev şəraitində müalicə alıram. İynə-dərmana azı 350-400 manat pul xərcləmişəm. Əsəblərim korlanıb, gecələr yata bilmirəm. Bir sözlə, haqsızlığın və bir müəssisə rəhbərinin ədalətsiz qərarının qurbanı oldum.

Səlahiyyətli qurumlardan xahiş edirəm, mən köm olsun. Mərkəzdə müalicə almasam ağrılarım kəsmir, gecə-gündüz dözə bilmirəm.

Bizə baxan tibb bacılarına və əziyyətimizi çəkən xadimələrə onu da bildirmək istəyirəm ki, biz sağlam olsaydıq heç ora gəlməzdik, özümüz özümüzə baxa bilsəydik sizlərdən heç nə xahiş etməzdik.

İş yerini seçən insanlardan xahiş edirəm, diqqətli fikirləşin ki, sabah əli-ayağı olmayan insan göründə insafınızı itirməyəsiz. Mən bir daha səlahiyyətli qurumlardan xahiş edirəm ki, bu məsələ araşdırılsın. Çox təəssüf ki, mənim kimi xəstələrin o cür mərkəzlərə çox ehtiyacı var.

Sonda onu da qeyd edim ki, İqbal müəllimin sosial şəbəkə vasitəsilə yaydığı məlumat tamamilə tibb bacısının və xadimənin uydurmasıdır".

Məsələ ilə bağlı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə əlaqə saxladıq. Vətəndaşın müraciətinin araşdırılacağı bildirildi.

**Jalə FAMİLQIZI**

***Redaksiyadan: Yazıda adları qeyd olunan şəxslərin və qurumların mövqeyini dərc etməyə hazırıq.***



# Evindən oğurluq edilən Yevlax sakini şikayətinə baxılmadığını iddia edir

**Xətai rayonu, NZS qəsəbəsi, Aşıq Qurban küçəsi 25 ünvanında yaşayan Həsənov Əfsan Əli oğlu tərəfindən "Hürriyyət" qəzetinin redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi iddia edir ki, həyətindən oğurluq olub, aidiyyəti qurumlar işə baxmır:**




"Mən, Yelvax rayonu, Kover kənd sakiniyəm. Hal-hazırda Xətai rayonu, NZS qəsəbəsi, Aşıq Qurban küçəsi 25 ünvanında kirayədə yaşayıram. Uşağımın səhhəti ilə bağlı rayondan gəlib, burada kirayədə qalıram.

Biz evdə olmayanda tanıdığım Pərviz adlı şəxs evimin zirzəmisinə girib və ailəmə məxsus qədimi qab-qacağı oğurlamışdır. Bu qədimi qab-qacaq bizə anamdan və qaynanamdan miras qalmışdır. 4 ədəd toy ləyəni, 4 ədəd toy qazanı, 1 ədəd "drujba", 1 ədəd qədim samovar, 1 ədəd ot biçən Pərviz tərəfindən həyətimdən oğurlanmışdır.

Hadisədən xəbər tutan kimi, Pərvizin atasına zəng vurub vəziyyəti danışdım. Kişi mənə dedi ki, polisə xəbər verməyin, özüm sənə dəymiş ziyanı hər ay ödəyəcəm. Mənə ilkin olaraq 450 manat pul verdi ki, al, polis bilməsin. Növbəti dəfə zəng vurub pul istəyəndə dedi ki, mən sahə müvəkkili ilə danışmışam, get əlindən gələni et. Sahə rəisinin adı Ələsgərdir.

Daha sonra yenə zəng vurdum. Dedi ki, sahə rəisinə 2600 manat pul vermişəm, mən daha heç kəsə pul verəsi deyiləm. Bu söhbətdən sonra dəfələrlə DİN-in 102 xidmətinə zəng vurmuşam. Hər dəfə bildirirdilər ki, narahat olmayın, işinizə baxılacaq.

Tədqiqatçılar Cavad müəllim və Qurban müəllim gəlib bizim qapıda çəkiliş etdilər. Bildirdilər ki, narahat olma, sənə dəyən ziyan ödəniləcək. Bundan sonra Ələsgər müəllimə zəng vurub dedim ki, mənim işimə niyə baxmırsan? Cavab verdi ki, get işinlə məşğul ol. Üz-üzə sözümü deməyə getdim. Onda da eyni sözü deyərək, qəfildən çənəmə yumruq atdı. Dedi ki, Pərvizin arxasında mən durmuşam, get əlindən gələni et.

Polis bölməsində Ələsgər, Cavad müəllim və Pərvizin atası bir müddət söhbət etdikdən sonra kişi səsini qaldıraraq dedi ki, mən Ələsgərə 2600 manat pul vermişəm, gedin məsələni özünüz həll edin".

Mən, sizin sayt vasitəsilə səlahiyyətli qurumlardan xahiş edirəm ki, problemimlə dərindən maraqlansınlar. Polis bizə kömək etmirsə, kimdən kömək istəyək? Yevlax şəhərində rüşvət baş alıb gedir, pulun varsa, sözün hər yerdə keçir".

Məsələ ilə bağlı Daxili İşlər Nazirliyi ilə əlaqə saxladıq, şikayətin araşdırılacağı bildirildi.

**Jalə FAMİLQIZI**

***Redaksiyadan: Yazıda adları qeyd olunan şəxslərin mövqeyini dərc etməyə hazırıq.***

# Beyləqan sakinləri küçə itlərinin qorxusundan axşamlar evdən çıxa bilmirlər



"İcra Hakimiyyəti binasının qarşısı itlərlə doludur, İstirahət yerimizi itlər mənimsəyib"

**Beyləqan rayonunun bir qrup sakini tərəfindən Hurriyyet.az saytının redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçilər iddia edirlər ki, küçə itləri həddindən artıq çoxaldığından, sakinlərin həyatı üçün təhlükə yaranıb, lakin bu məsələ rəsmi qurumları narahat etmir:**

"Biz, Beyləqan sakinləri, yazaraq sizdən kömək istəyirik. Bizim problemimizi ictimailəşdirin, bəlkə küçə itləri üçün sığıncaq düzəldib, buradan yığıb aparalar.

Hava qaralanda qorxumuzdan evdən çıxa bilmirik. Gecələr daha da qorxulu mənzərə olur. Rayonun mərkəzi, İcra Hakimiyyəti binasının qarşısı itlərlə doludur. İstirahət yerimizi itlər mənimsəyib. Şəhid ailələri, bütün insanlar bura istirahətə, hava almağa gəlirdi. İndi heç kim həmin əraziyə gedə bilmirg

Bir iki gün öncə Sedmoy adlı kənddə uşağı it parçalayıb, vəziyyəti ağırdır. Göz yumaq ki, it bütün körpələrə, qocalara hücüm edib yaralasın?! Bunun bir yolu olmalıdır. Səlahiyyəti çatan qurumlardan xahiş edirik, bizə kömək edin".

**Jalə FAMİLQIZI**

***Redaksiyadan: Yazıda adları qeyd olunan şəxslərin mövqeyini dərc etməyə hazırıq.***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması**

# Azərbaycana qarşı hərbi təxribat cəhdinin pərdəarxası

Məhəmməd Əsədullazadə: "Ermənistanın Azərbaycanla sərhəddə artilleriya qurğuları və canlı qüvvə yığması bir daha Paşinyanın ortaya müstəqil siyasi iradə qoya bilmədiyini göstərir"

Asif Nərimanlı: "İrəvan 4 kəndin qaytarılmasını əsaslandırmaq üçün sərhəddə gərginlik yarada və bundan istifadə edə bilər"

Kənan Novruzov: "Ermənistan tərəfindən sabotaj cəhdləri olarsa, yaxın vaxtda yeni əməliyyatların başlanması istisna deyil"

**Bugünlərdə Azərbaycan Müdafiə Nazirliyinin yaydığı məlumatda deyilir ki, son zamanlar Ermənistan-Azərbaycan şərti sərhədinin müxtəlif istiqamətlərində Ermənistan silahlı qüvvələrinin canlı qüvvəsi, zirehli texnikası, artilleriya qurğuları, habelə digər ağır atəş vasitələrinin cəmləşdirilməsi və qoşunların intensiv hərəkəti müşahidə olunur. Həmçinin, qeyd olunub ki, son vaxtlar Ermənistanda Azərbaycanı müharibə ilə hədələyən revanşist qüvvələrin daha da fəallaşması, ölkəmizə qarşı aqressiv ritorikanın yüksək həddə çatması və təxribat cəhdlərinə hazırlıq məqsədilə informasiya məkanında vəziyyətin gərginləşməsinə xidmət edən təhrikçi məlumatların sayının artması özünü büruzə verir.**

Müdafiə Nazirliyi xəbərdarlıq edib ki, Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycana qarşı hər hansı hərbi təxribat cəhdi olarsa, onun qarşısı Azərbaycan Ordusu tərəfindən qətiyyətlə alınacaqdır: "Bir daha bəyan edirik ki, vəziyyətin gərginləşməsinə və baş verə biləcək hər hansı təxribata görə bütün məsuliyyət tamamilə Ermənistan və onun havadarlarının üzərinə düşəcəkdir".

Bu arada, axar.az-da yer alan informasiyaya görə, Ermənistan Müdafiə Nazirliyi isə öz növbəsində, Ermənistan-Azərbaycan dövlət sərhədində son əməliyyat vəziyyətinin stabil olduğunu və sərhədin mühafizəsi üçün əlavə tədbirlərin görülməsinə ehtiyac olmadığını bildirib: "Martın 30-da təlim prosesi çərçivəsində avtoyürüş keçirən işə götürülən sürücülərin fotoşəkilləri bir sıra teleqram kanallarında yayılaraq, bunu qoşunların hərəkəti kimi təqdim etməyə çalışırlar". Qeyd edək ki, Ermənistan Müdafiə Nazirliyi fevral ayında açıqlama yayaraq, 1 aprel-28 iyun tarixləri arasında ehtiyatda olan 4799 hərbi qulluqçunu təlimə çağıracağını elan etmişdi. Yəni, ehtiyatda olanların təlimi hələ 1 apreldə başlayacaq, ona görə də 30 martda "təlim prosesi çərçivəsində işə götürülən sürücülərin avtoyürüşü" məntiqi özünü doğrultmur.

**"Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin bağlanmasına qarşı olan ölkələr, əsasən də Fransa, İran və Rusiya İrəvana təsir edir"**



Beləliklə, mövzu ilə bağlı mövqeyini "Hürriyyət"lə bölüşən Milli Cəbhə Partiyasının sədr müavini, politoloq Məhəmməd Əsədullazadə hesab edir ki, Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin bağlanması əvvəlki illərdən daha yaxın idi: "Belə ki, həm Azərbaycan, həm də Ermənistan tərəfindən pozitiv açıqlamalar verilirdi. Xüsusilə, rəsmi Bakı sülh müqaviləsinin bağlanmasında daha israrlı şəkildə çalışır. Ermənistanın baş naziri Nikol Paşinyan Qazaxın 4 kəndinin verilməsinin vacibliyini də xüsusi olaraq qeyd edib. Amma Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin bağlanmasına qarşı olan və buna maneçilik törədən ölkələr İrəvana təsir edir. Burada Fransa və İran daha aktiv rol oynayır. Həmçinin, Rusiya da sülhün olmaması üçün əlindən gələni edir".

Milli Cəbhə Partiyasının sədr müavininin qənaətincə, Ermənistan hakimiyyəti müstəqil siyasi iradəyə malik olmadığı üçün Nikol Paşinyanın sülh mesajlarında maksimum ehtiyatlı davranır: "Ermənistan tərəfinin Azərbaycanla sərhəddə artilleriya qurğuları və canlı qüvvə yığması bir daha Nikol Paşinyanın ortaya müstəqil siyasi iradə qoya bilmədiyini göstərir. Hesab edirəm ki, Azərbaycanla İran arasında son günlər soyuq münasibətlərin yaranması və prezidentlərin görüşünün təxirə salınması məhz Tehranın sülhə mane olduğundan irəli gəlir. Heç kimə sirr deyil ki, İran Ermənistana silah daşınmasında əsas tranzit ölkədir. Odur ki, Fransa, İran və Rusiya Ermənistanın sərhəddə qoşun yığmasından məmnun görünür. Düşünürəm ki, Paşinyan Azərbaycanla müharibə etmək istəyirsə, o zaman onun əsas hədəfi danışıqlarda üstünlük əldə edib, Qarabağdan köçən ermənilərin geri qaytarılması şərtini Azərbaycana qəbul etdirməkdir. İkincisi isə Cermux istiqamətində qoşunlarımızın geri çəkilməsinə nail olmaqdır. Eyni zamanda, Azərbaycana qarşı beynəlxalq təzyiqi formalaşdırmaq da planın tərkib hissəsidir. Bu plan isə Fransa, İran və Rusiyanın maraqlarına uyğundur".

Məhəmməd Əsədullazadə sonda əlavə edib ki, Ermənistanın dünən sülhdən danışan, bu gün isə ordunu döyüş hazırlığı ilə sərhəddə yığan rəhbərliyi sələflərinin siyasətini davam etdirir: "Onu da qeyd etmək lazımdır ki, yeni toqquşma olacağı təqdirdə Ermənistan yeni ərazi itkisinə məruz qalacaq. Əgər Ermənistan rəhbərliyi Fransa və Hindistandan aldığı bir neçə raket, artilleriya qurğuları ilə hərbi pariteti öz lehinə deyişəcəyini zənn edirsə, strateji səhvə yol verir. Nikol Paşinyan 4 kəndi geri vermək üçün xalqı sakitləşdirmək üçün ordunu sərhəddə yığırsa, bununla müharibə qorxusu yaradırsa, deməli təxribatlara gedə bilər. Azərbaycan sərhəddə qoşun cəmləşdirməyib, bunu Ermənistan edirsə, sifariş xaricdən verilib".

**"Ermənistanın təlim adı altında orduya 5 minə yaxın hərbçi cəlb etməsinin mümkün təxribata hazırlıq məqsədi daşıdığı istisna edilməməlidir"**

Ermənistanın Azərbaycanla döyüşmək gücündə olmadığını vurğulayan siyasi şərhçi Asif Nərimanlı isə bildirib ki, buna baxmayaraq, mövcud vəziyyətdə sərhəddə təxribatlara əl ata biləcəkləri gözlənilən ssenarilərdəndir: "Erməni ordusunun hansı məqsədlə kazarmadan çıxdığı məlum olmasa da, hərəkətə keçdiyi dəqiqdir. Çünki 1 aprel-28 iyun tarixlərində Ermənistanda ehtiyatda olanlar hərbi təlimlərə çağırılıb. Hesab etmək olar ki, canlı qüvvə və hərbi texnikanın hərəkətliliyi bu təlimlərlə bağlıdır. Lakin təlimlərdə müəyyən detallar xüsusilə diqqət çəkir. Birincisi, təlimə çağırılan hərbçilərin sayı 5 minə yaxındır və xüsusi üstünlük zabit heyətinə verilib. Mövcud vəziyyətdə isə 5 minə yaxın hərbçinin təlimə cəlb edilməsi şübhələrə yol açır. İkincisi, təlimə cəlb edilən hərbçilərin Azərbaycana qarşı təxribatlara cəlb edildiyi təcrübəsi var. Ötən ilin sentyabrında sərhəddə törədilən erməni təxribatından sonra ordumuzun cavab addımları nəticəsində məhv edilən hərbçilər arasında 25 günlük təlimə çağırılanların olması bunu təsdiq edir. Bu kontekstdə Ermənistanın təlim adı altında orduya 5 minə yaxın hərbçi cəlb etməsinin mümkün təxribata hazırlıq məqsədi daşıdığı istisna edilməməlidir. Ermənistanın Azərbaycanla döyüşmək gücünün olmadığı bəllidir, lakin mövcud situasiyada sərhəddə təxribatlara əl ata biləcəkləri gözlənilən ssenarilərdəndir".

Siyasi şərhçinin fikrincə, belə bir təxribatla sərhəddə gərginlik yaradacaq Ermənistan hakimiyyəti bundan 4 kəndin qaytarılmasını əsaslandırmaq üçün istifadə edə bilər: "Paşinyan Tavuş səfərində "kəndləri qaytarmasaq, müharibə olacaq" demişdi və bunu daxili ictimai rəydə isbatlamaq üçün kiçikhəcmli hərbi macəraya gedə bilərlər. Lakin bu, baş verən proseslərdə kiçik elementlərdən biridir. Əsas hədəfin Qərbin Ermənistanın təhlükəsizliyinə cəlb edilməsi olduğu istisna deyil. Aprelin 5-də Brüsseldə keçiriləcək Ermənistan-Avropa İttifaqı-ABŞ formatındakı görüşün Qərb qüvvələrinin Cənubi Qafqaza girişi üçün qapıların geniş açılması məqsədi daşıdığı məlumdur. Bu görüş ərəfəsində, yaxud görüşdən sonra Azərbaycanla sərhəddə baş verə biləcək eskalasiya Qərb qüvvələrinin Ermənistanın "təhlükəsizliyinə" cəlb edilməsi üçün əsaslı arqument ola bilər. Eyni zamanda, belə bir eskalasiya Rusiyanın Ermənistandakı mövqelərinin "vurulması" ssenarisində də lazımlıdır. Bu baxımdan, Ermənistanda ehtiyatda olan 5 min hərbçinin cəlb edildiyi hərbi təlimlər və Cənubi Qafqazda gözlənilən planlar fonunda Azərbaycanla sərhədə canlı qüvvə-hərbi texnikanın cəlb edilməsi xəbərləri mümkün təxribat hazırlığına dair gözləntiləri ön plana çıxarır".

**"Vəziyyətin gərginləşəcəyi gözlənilən idi, çünki son vaxtlar Qərbin, o cümlədən ABŞ və Avropa İttifaqının Ermənistana təsirləri artıb"**

Beynəlxalq Münasibətlər və Diplomatiya Araşdırmaları Mərkəzinin eksperti Kənan Novruzov isə qeyd edib ki, vəziyyətin gərginləşəcəyi gözlənilən idi, çünki son vaxtlar Qərbin, o cümlədən ABŞ və Avropa İttifaqının Ermənistana təsirləri artıb: "Bunun ən bariz nümunəsi kimi aprelin 5-də ABŞ, Avropa İttifaqı və Ermənistan arasında keçiriləcək üçtərəfli görüşü göstərmək olar. Brüssel və Vaşinqton hər nə qədər neytral olduqlarını desələr də, faktiki olaraq özlərinin regional maraqları üçün İrəvandan istifadə edirlər. Bu da son nəticədə bölgədə "suları bulandırır", sülh gündəliyinə zərbə vurur. Ermənistanın sərhədə qoşun yığması və durumu bilərəkdən gərginləşdirməsi ilə bağlı ehtimal olunan üç əsas versiya var. Bunlardan birincisi odur ki, İrəvan üçüncü güclərin təsiri altındadır. Öz iradəsi isə yox, havadarlarının iradəsi ilə addım atır. Regionda qalmaq istəyən güclər sülh prosesinin yaxınlaşmaqda olduğunu görüb bütün imkanları ilə buna mane olmaq istəyirlər. İkincisi, mümkündür ki, daxildəki revanşistlər yenidən ayağa qalxıblar və sülh quruculuğu prosesinə zərbə vurmaq istəyirlər. Əgər belədirsə, Rusiyanın da bu və ya digər formada daxildəki müxalif güclərə dəstək verməsi mümkündür. Ola bilsin, rəsmi Moskva bu yolla perspektivdə rəsmi İrəvanı cəzalandırmaq istəyir. Çünki son vaxtlar Rusiya ilə Ermənistan arasında gərginlik artır".

Kənan Novruzovun sözlərinə görə, o da istisna deyil ki, Ermənistanın baş naziri Nikol Paşinyan bunu bilərəkdən edir: "Məlum olduğu kimi, sülh prosesi üçün zəruri olan bir neçə məqam var. Bunlar sırasında işğal altındakı 8 kəndin Azərbaycana qaytarılması, həmçinin Ermənistanın Azərbaycana qarşı ərazi iddialarını ehtiva edən mövcud konstitusiyasının dəyişdirilməsi əsas tələblərdəndir. Ola bilsin, Paşinyan hakimiyyəti anlayır ki, bunlar birdən-birə olarsa, daxildə mövcud iqtidara qarşı narazılıq artar. Odur ki, o, bilərəkdən gərginlik yaratmaq və itkilər vermək göstərmək istəyir ki, Ermənistanın Azərbaycanın tələblərini yerinə yetirməkdən başqa yolu yoxdur. Yuxarıdakı ehtimalların hər biri mümkündür. Həmçinin, mövcud vəziyyətə təsir edə biləcək başqa səbəblər də ola bilər. Amma səbəbin nə olduğu Bakı üçün o qədər də əhəmiyyətli deyil. İrəvana konkret xəbərdarlıq edilib: istənilən təxribatın qarşısı qətiyyətlə alınacaq. Beləliklə, bundan sonrasını Ermənistan düşünməlidir. Belə davam edərsə, sabotaj cəhdləri olarsa, yaxın vaxtda yeni əməliyyatların başlanması istisna deyil".

**Vazeh BƏHRAMOĞLU**



# Baltimor körpüsünü kim uçurdu?

## ABŞ-ın "heroin paytaxtı"na gedən yolun bağlanılması təsadüf, yoxsa düşünülmüş plandır?

Bir neçə gün əvvəl Sinqapur bayrağı altında üzən və Şri-Lankaya gedən konteyner gəmisi Baltimorda Patapsko çayı üzərindən Frensis Skott Key adlı (ABŞ dövlət himninin müəllifi) avtomobil körpüsünə çırpıldı. ABŞ-a yük daşıyan əksər transatlantik yük gəmiləri kimi, Sinqapur bayraqlı konteyner gəmisi "Dali" də Kolomboya getməzdən əvvəl keçən həftə Baltimorda Nyu-York və Nyu-Cersi limanlarında dayandı. Sinqapur Dəniz Təşkilatının məlumatına görə, gəmidə insidentdən dərhal əvvəl "qısa müddət ərzində nasazlıq baş verib". Nəticədə gəmi müvazinətini saxlaya bilməyib və Frensis Skott Key körpüsü ilə toqquşub.

Prezident Co Bayden körpünü bərpa etmək üçün "yeri-göyü lərzəyə gətirəcəyini" və federal hökumətin iş üçün pul sərf edəcəyini vəd edib. Lakin təcili xilasetmə səyləri və gəmiçiliyi tənzimləyən qanunlar fonunda digər böyük limanlar arasında sıxışdırılmış kritik dayanacaq olan Baltimor limanının bağlanması, çox güman ki, bir neçə ay davam edəcək. Qəza avtomobil və yük maşınları üçün əsas idxal limanı olan Baltimor limanının böyük hissəsinə girişi kəsib.

Hadisənin ardınca Baltimor meri Brendon Skot hadisə yerinə yollandı. Merilend ştatının qubernatoru Ues Mur (demokrat) fövqəladə vəziyyət elan etdi. Körpünün dağılmasından sonra "ABŞ-ın 1 nömrəli avtomobil limanı" olan Baltimor limanı (ildə təxminən 858 000 avtomobil "Daimler", "Volkswagen" və "Hyundai" Baltimor vasitəsilə ölkəyə gətirilir) bağlandı. Liman həm də yüngül yük maşınlarının, kənd təsərrüfatı və tikinti texnikasının, xaricdən gətirilən gipsin daşınması üzrə ölkədə birinci yeri tutur. Baltimor limanı ABŞ-ın kömür ixracatının 25%-ni həyata keçirir.

Merilend ştatında "Lockheed" və "NSA" (Pentaqonun tərkibinə daxil olan Milli Təhlükəsizlik Agentliyi, hansı ki, Ukrayna Silahlı Qüvvələrinə dəstək verir) baş qərargahları yerləşir. Onu da diqqətə alaq ki, Pentaqonun tərkibində kəşfiyyat qurumu olan NSA-Milli Təhlükəsizlik Agentliyinin rəhbəri General Timoti D.Hof "CyberCom" qurumuna da rəhbərlik edir.

Keçən il Baltimor limanı üçün rekord il olub. 80 milyard dollar dəyərində 52 milyon ton xarici yük daşınıb - bu, əvvəlkindən təxminən 8 milyon ton və 6 milyard dollar çoxdur. 3 fevral 2023-cü ildə Ohayo ştatının Şərqi Fələstin kəndində təhlükəli "kimyəvi maddələr" daşıyan yük qatarı müəmmalı şəkildə relsdən çıxmışdı.

Baltimor qəzası həm də Corciya ştatının Atlanta şəhərində və 2021-ci ilə qədər Virciniyada yerləşən "Norfolk Southern Railway" ilə əlaqəli bir qrup tərəfindən cavab addımı ola bilər. Atlanta xüsusi yerdir. 2023-cü ildə "Money Inc" Atlantanı ABŞ-ın banditlərin cənginə aldığı üçüncü ??şəhər adlandırdı. 1997-ci ildən isə Atlanta Meksikadan gətirilən kokain və digər narkotiklərin mühüm paylama mərkəzinə çevrilib. 2023-cü ildə Atlanta insan alverinə görə Vaşinqtondan sonra ikinci yeri tutdu. Atlantadakı bandaların əksəriyyəti insan alveri ilə məşğuldur. Alınıb-satılan uşaqların orta yaşı 12-14 yaş arasındadır.





Bundan əlavə, ABŞ fentanilə qərq olarkən, federal agentlər ümumi tendensiya müşahidə etdilər: "Əminliklə demək olar ki, bütün Şərq sahil boyunca ələ keçirilən narkotiklərin əksəriyyəti Atlantadan keçdi". Bu haqda açıqlama verən FTB-nin xüsusi agenti Robert Merfi həmçinin qeyd etdi ki, Atlantanı fentanil üçün yaxşı paylama mərkəzinə çevirən bir çox amillər, o cümlədən onun coğrafi mövqeyi və beynəlxalq hava limanı var. "Sinaloa" və "CJNG" narkokartelləri fentanili məhz Atlantaya idxal edir. Belə təsəvvür yaranır ki, Baltimor körpüsünün uçması narkotiklərlə mübarizənin nəticəsidir?..

Yaxud ola bilsin ki, Meksika "Sinaloa" və "CJNG" kartelləri arasında Baltimor qəzası bu şəhər uğrunda rəqabətin güclənməsi - günahkarların axtarışı, alternativ təchizat kanallarının yaradılması, mövqelərin yenidən bölüşdürülməsi və s. Asiyadan prekursorların gəldiyi Meksikanın Sakit okean limanlarına yaxın ərazilərdə bandalar arası hesablaşma kimi ortaya çıxır.

**Öz növbəsində ABŞ-ın Şərq Sahili (Baltimor daxil olmaqla) Hindistan, Şri-Lanka və Avropadan tədarük üçün daha əlverişlidir. Beləliklə, Baltimor qəzasının içində "hind nüansı"nın olması maraq doğurur:**

**1.** DEA (ABŞ Narkotiklərlə Mübarizə İdarəsi) hesabatı Baltimoru (Merilend ştatının ən böyük şəhəri) ABŞ-ın "heroin paytaxtı" adlandırdı.

**2.** 2024-cü il fevralın 7-dək vitse-prezident olduğu müddətdə prezident Co Baydenin məxfi sənədlərlə səhv davranması iddiasını araşdıran Robert Gur əvvəllər fentanil tacirlərini mühakimə edən Merilend prokuroru olub.

**3.** Bayden administrasiyası ksilazini milli təhlükə elan etdi. Ksilazinin istifadəsi bütün ölkəyə yayıldıqca, onu qəbul edənlər təhlükəli xəsarət alır. Narkotik satıcıları ksilazini opioidlərlə qarışdırıb satdığı üçün Baltimora narkotik axını oldu.

**4.** Əyalət rəsmiləri bildirirlər ki, marixuana istifadəçiləri iyul ayında kannabisə hər gün orta hesabla 2,8 milyon dollar xərclədikləri halda, Merilend ştatında əyləncəli satışların ilk ayında kannabis üçün 87,43 milyon dollar xərcləyiblər.

Beləliklə, qapadılmış Baltimor limanı təkcə ABŞ avtomobil bazarına deyil, həm də narkotik ticarətinin meyarlarına da təsir göstərə bilər.

İndi isə "Maersk" gəmiçilik şirkətinin icarəyə götürdüyü və qəfil "idarəetməni itirmiş" "Dali" konteyner gəmisi haqqında. Və bu qəza ABŞ Maliyyə Nazirliyinin Xarici Aktivlərə Nəzarət Ofisinin Çin Dövlət Təhlükəsizlik Nazirliyinin çox sayda zərərli kiber hücumlar üçün kamuflyaj rolunu oynayan "Wuhan Xiaoruizhi Science and Technology Company Ltd" kompaniyasına qarşı sanksiya elan etməsindən sonra baş verir.

Xəzinədarlıq Departamenti müdafiə, aerokosmik və enerji də daxil olmaqla, ABŞ-ın kritik infrastruktur sektorlarını hədəf alan kiber əməliyyatlar üçün Wuhan şirkətinə bağlı iki Çin vətəndaşı Zhao Guangzong və Ni Gaobin adını çəkdi. Böyük Britaniya da həmçinin Çinin APT 31 kiberqrupunun (Zirkonium və ya Panda qasırğası kimi tanınır) əməliyyatlarında iştirak edən iki şəxsə qarşı sanksiyalar tətbiq edib.

"Dali" konteyner gəmisi 2020-ci ildə "Lloyd's List" tərəfindən qlobal gəmiçilikdə 100 ən nüfuzlu şəxsdən biri seçilən kapitan Rajeş Unni tərəfindən Çennayda qurulan "Synergy Group" şirkətinə məxsusdur. Rajeş Hindistanın cənubundakı Kerala əyalətində anadan olub. Elit Ordu Məktəbi "Trivandrum" və Mumbaydakı "LBS Qabaqcıl Dəniz Araşdırmaları Kolleci"nin məzunudur.

2023-cü ilin noyabrına olan məlumata görə, "Synergy Marine Group" 640-dan çox gəmidən ibarət donanma ilə dünyanın üçüncü ən böyük gəmiçilik şirkətidir. Şirkətin icraçı sədri Rajeş Unnidir. "Synergy Marine Group"un gəmi idarəetmə bölməsinin baş direktoru Ajay Çaudridir. Beləliklə, əgər Baltimor qəzası xüsusi aksiya olubsa, bu, əslində Hindistan elitasının nümayəndələrinə qarşı olub. "Dali" konteyner gəmisinin bütün ekipaj üzvləri hindistanlı idi. Bu deyilənlərə Hindistanın narkotikin prekursorlarının istehsalında Çini qabaqladığını qeyd etsək, daşlar yerinə oturur. Başqa sözlə, narkotik prekursorları istehsalı və satışı mübarizəsində Hindistan və Çin rəqabəti Baltimor körpüsünün uçurdulmasında hesablaşma kimi yaşandı.

**Ülviyyə ŞÜKÜROVA**

# İngilis dili müəllimi təhsildəki özbaşınalıqlardan yazır

## "Ümid edirəm ki, Gəncədə dostbazlıq və qohumbazlıq oyunları bitəcək"

**Gəncə şəhər sakini Zeynalova Elvira Oruc qızı tərəfindən "Hürriyyət" qəzetinin redaksiyasına şikayət məktubu daxil olub. İsmət Qayıbov adına 1 saylı tam orta məktəbdə İngilis dili müəllimi kimi fəaliyyət göstərən E.-Zeynalovanın məktubunu olduğu kimi oxuculara təqdim edirik:**



"Ölkələrin və xalqların inkişafı elm və təhsildən əhəmiyyətli dərəcədə asılıdır. O ölkələr, o xalqlar irəli gedir ki, orada elm və təhsil daim inkişafdadır. Ulu öndər Heydər Əliyev yeni əsr və üçüncü minillik münasibəti ilə xalqımıza müraciətində təhsil sahəsində görülən işləri yüksək dəyərləndirərək deyirdi: "Xalqımızın tarixi taleyi elə imkan yaratmışdır ki, ötən yüzillikdə Azərbaycan köhnə dünyadan sürətlə qopmuş, elm, mədəniyyət, təhsil, intibah yolunu tutmuşdur. Kütləvi surətdə savadlanmaq, elmə, mədəniyyətə, təhsilə can atmaq Azərbaycan xalqının mənəviyyatını, həyat tərzini dəyişmiş, onu inkişaf edən dünyaya qovuşdurmuşdur".

"Hər kəs öz tərcümeyi-halı, öz həyat yolu ilə məktəbin, müəllimin insanın həyatında nə kimi rolu olduğunu bilir və qiymətləndirir. Mən isə həmişə həyatımda bütün varlığımla keçdiyim həyat yolu ilə məktəbə borcluyam, müəllimə borcluyam".

Bu vacib sahəyə üstün istiqamət verən ulu öndərimiz "Təhsil millətin gələcəyidir" deyirdisə, bu yolu davam etdirən ölkə rəhbəri cənab İlham Əliyev təhsilə " Azərbaycanın gələcəyini müəyyən edən prioritet sahə" kimi yüksək dəyər verərək, iqtisadi potensialın insan kapitalına çevrilməsini bir vəzifə olaraq qarşıya qoydu. Bütün bunlar isə təhsilə yeni texnologiyaları çevik mənimsəmək, əmək bazarında və şəxsi həyatda layiqli yer tutmaq, cəmiyyətdə gedən proseslərə münasibətdə düzgün mövqe seçmək imkanı yaratdı.

Nəzərinizə çatdırıram ki, mən 18 ildən artıqdır Gəncə şəhər, İsmət Qayıbov adına 1 saylı tam orta məktəbdə ingilis dili müəllimi işləyirəm. 2022-ci ilin oktyabr ayından başlayaraq Gəncə-Daşkəsən Regional Təhsil şöbəsinin müdiri Anar Qədiməliyev qohumbazlıq və dostbazlıq prinsiplərinə əsasən işləyir. Belə ki, Gəncə-Daşkəsən Regional Təhsil şöbəsinin müdiri Anar Qədiməliyev Ümumtəhsil məktəblərinin Nümunəvi Nizamnaməsinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikasının 2009-cu il 5 sentyabr tarixli, 156 nömrəli Fərmanının 1.22-ci bəndinin icrasının təmin etmək məqsədi ilə qəbul edilmiş qərarın 2.6 və 2.7-ci bəndlərinin tələblərini pozmaqla, mənim sinif rəhbəri olduğum sinifi bağlayaraq, qanun pozuntusuna yol vermişdir.

Qeyd edim ki, mənim sinif rəhbəri olduğum sinifi bağlamaq məqsədi ilə şagird sayının süni şəkildə azaldılmasına görə keçmiş məktəb rəhbərliyi haqqında etdiyim şikayəti araşdırmadan cavab məktubu göndərmişdir. Mən bu vəzifəli şəxsə izah edə bilmədim ki, Ümumtəhsil məktəblərinin Nümunəvi Nizamnaməsinə əsasən, məktəbdə şagird sayı bərabər olaraq hər sinifdə 20 nəfər olmaqla bölünməlidir və şagird sayı 30 və daha artıq olarsa paralel sinif təşkil edilməlidir.



Tədris ilinin əvvəlində 10 "e" sinfinin sinif rəhbərliyi dərs bölgüsü zamanı mənə həvalə olundu. Sinif şagirdlərinin sayı 21 nəfər idi. Məktəbdə 10-cu sinifdə rus bölməsində təhsil alan şagirdlər saylarına görə 3 sinif arasında rus bölməsində tədris işləri üzrə müdir müavini vəzifəsində işləyən İmamverdiyeva Səbinə Arif qızı tərəfindən qeyri-bərabər şəkildə bölünmüşdür. 10 "ç" sinfinə Pişnamazzadə Esmira, 10 "e" sinfinə Mən Zeynalova Elvira və 10 "d" sinfinə isə faktiki olaraq İmamverdiyeva Səbinə sinif rəhbərliyi vəzifəsini yerinə yetirirdik. Sinifdə şagird saylarının qeyri-bərabər olmasına etiraz etməyimə baxmayaraq, dərs hissə müdiri tərəfindən hec bir tədbir görülməmişdir. Hətta məktəbə yeni gələn şagirdlərin təhsili İmamverdiyeva Səbinənin sinif rəhbəri olduğu sinifə yönəldilmişdir. Bu isə öz növbəsində müasir təhsil metodikasına ziddir. Belə ki, bir sinifdə şagird sayının 25-30 nəfər olması müasir kurikulum tədris metodikasına uyğun deyil. Çünki dərs prosesi zamanı müasir tədris metodikasına uyğun olaraq müəllim sinifdə olan şagirdlərin hər birinin aktiv olmasını təmin etməlidir, hətta bəzi fənnlər üzrə bu metodikanın uğurlu tətbiqi üçün siniflər ayrı-ayrı iki qrup şəklində bölünürlər. İnformatika fənni, xarici dil fənni, fiziki tərbiyyə fənni və s. Bundan başqa, məktəbdə siniflərin təşkili və şagirdlərin siniflər üzrə qruplaşdırılması tədris ili başlayana qədər qanuna uyğun şəkildə həll olunmalıdır.

Onu da nəzərə almalıyıq ki, məktəbin rus bölməsində tədris işləri üzrə direktor müavini İmamverdiyeva Səbinə Arif qızının sinif rəhbəri vəzifəsini yerinə yetirməsi qanunsuz olardı, sadəcə bu işin qanuni qeydiyyatı başqa müəllimin adındadır, lakin faktiki olaraq işi İmamverdiyeva Səbinə Arif qızı aparır. Səbəb olaraq o göstərilir ki, İmamverdiyeva Səbinə Arif qızının öz oğlu həmin 10 "d" sinifində təhsil alır. Heç bir səbəb olmadan 10 "ç" sinfinin 3 şagirdi şagird sayının cox olmasına baxmayaraq, 10 "d" sinfinə keçirilmişdir və yenə də heç bir səbəb olmadan mənim sinif rəhbəri olduğum 10 "e" sinifinin 3 şagirdi də 10 "ç" sinfinə keçirilmişdir. Bu edilən "əməliyyat"ların məqsədi mənə məlum deyil.

İndi isə hal-hazırda tədris ilinin yarsında məlum olur ki, guya 10 "e" sinifinin açılması qanuna uyğun deyilmiş və bu deyilənlərin heç birinə hüquqi əsas gətirilmir. Belə görünür ki, sayı 60 dan cox olan şagird kontingenti 2 sinifə - hər birində 30-35 dən cox olmaqa bölünəcəkdir. Bu isə öz növbəsində keyfiyyətsiz dərs prosesi keyfiyətli təhsildən kənar qalmış şagird və nəzarəti mümkün olmayan sinif deməkdir.

Bu əməlləri törədən vəzifəli şəxslərə bildirmək lazımdır ki, cənab Prezidentin daxili siyasətə yönləndirilmiş bir tövsiyəsini nəzərə alsınlar. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən bir neçə il əvvəl Dünya Azərbaycanlılarının III qurultayındakı nitqində demişdir: "Biz neft kapitalını insan kapitalına çevirməliyik".

İlham Əliyevin keyfiyyətli təhsil haqqında: "Təhsil ölkəmizin ümumi inkişafına uyğun şəkildə inkişaf etməlidir və ən müasir tələblərə cavab verməlidir".

Tədris müəssisəsində baş vermiş bu hadisələr fərdi xarakter daşıyır. Bu işlərin törədilməsi məktəbin idarə olunması həvalə edilmiş vəzifəli şəxslərin özbaşınalığından başqa bir şey deyil. Belə görünür ki, məktəb dövlət qanunları, dövlət siyasəti, Elm və Təhsil Nazirliyinin tövsiyələri və təlimatları əsasında deyil, şəxsi qərarlarla idarə olunur. Nəzərinizə catdırım ki, yuxarıda göstərilən hərəkətlərdə heç bir dövlət və xalq mənafeyindən və təhsilin keyfiyyətli təşkil edilməsindən söz gedə bilməz.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 13 yanvar tarixli 5 nömrəli qərarı ilə təsdiq edilmiş

Ümumtəhsil məktəbinin Nümunəvi Nizamnaməsi

2. Ümumtəhsil məktəbinin strukturu

2.6. Ümumtəhsil məktəblərində siniflər şagirdlərin sayı ən azı 20 nəfər olmaqla müəyyən edilir.

2.6-1. Ümumtəhsil məktəbi üzrə bir sinifdə şagirdlərin ümumi sayı 20 nəfərə çatmadıqda, mövcud şagird sayı ilə sinif təşkil olunmasına yol verilir.

2.6-2. Eyni bir sinifdə şagirdlərin sayı 30 nəfərdən çox olduqda və ya şagirdlərin bir sinifdə tədrisinə sinif otağının ölçüsü imkan vermədikdə, həmin sinif üzrə ikinci paralel sinif təşkil edilir.

2.6-3. Tədris ilinin birinci yarısında hər hansı bir səbəbdən siniflərdə şagirdlərin sayı azaldıqda və ya artdıqda, siniflər bu Nizamnamənin müvafiq olaraq 2.6-cı-2.6-2-ci bəndləri ilə müəyyən edilmiş say həddində birləşdirilir və ya paralel sinif təşkil edilir.

Müvafiq qanunlarla edilən hərəkətlət ziddiyyət təşkil edir.

Bununla bağlı mən Azərbaycan Respublikası Baş Prokurorluğuna etdiyim şikayət ərizəm araşdırılması üçün Gəncə şəhər Prokurorluğuna, prokuror köməkçisi Ramiz Nəbiyevə verildi. Şikayət ərizəsi 13.02.2024-cü il tarixdə araşdırmaya verilməsinə baxmayaraq, prokuror köməkçisi Ramiz Nəbiyev tərəfindən heç bir araşdırma aparılmadı. Mən 19.02.2024 tarixdə şikayət ərizəsi ilə bağli Gəncə şəhər Prokurorluğuna getdim və prokuror köməkçisi Ramiz Nəbiyev məni qəbul etmək istəməsə də, mən təkidlə onun qəbulunda oldum, işlə bağlı hərəkətsizliyə görə öz iradımı bildirdim. Prokuror köməkçisi Ramiz Nəbiyev mənim izahatımı 19.02.2024 tarixdə aldıqdan sonra 13.03.2024 il tarixdə bildirdi ki, şikayət etdiyim qurum barədə araşdırma aparılması həmin qurumun rəhbəri Anar Qədiməliyevə həvalə edilmiş və qanun pozuntusuna yol vermiş idarənin işçilərindən ibarət komissiya təşkil edilərək, şikayətdə göstərilən halların araşdırılmasi onlara həvalə edilmişdir. Çox maraqlı bir hal yaranmışdır ki, hərəkətlərindən şikayət etdiyim quruma şikayətim araşdırılması üçün göndərilir. Bu azmış kimi, qeyd edilən pozuntu ilə bağlı məktəbdə prokurorluq tərəfindən heç bir araşdırma aparılmadı.

Əslində, tərəfimdən Ramiz Nəbiyevə sübut və dəlillər təqdim edilmişdi. Gəncə şəhər prokurorluğunun prokuror köməkçisi Ramiz Nəbiyev məni qəbul etmir və şikayətimlə bağlı heç bir tədbir görülmür. Bu hərəkətlər Vətəndaşların müraciətləri haqqında Azərbaycan Respublikası Qanununun 7.13 bəndinin pozulması deməkdir.

Vətəndaşların müraciətləri haqqında Azərbaycan Respublikası Qanunu

Maddə 7. Vətəndaşların yazılı müraciətlərinin qəbulu, qeydiyyatı və onlara baxılması qaydası;

7.13. Vətəndaşların müraciətlərini aidiyyəti üzrə baxılmaq üçün qanunazidd hərəkətindən (hərəkətsizliyindən) şikayət edilən müraciətə baxan subyektə və ya onun vəzifəli şəxslərinə göndərmək qadağandır.

Prokuror köməkçisi Ramiz Nəbiyev hansısa səbəbdən Təhsil İdarəsi haqqında şikayəti qanuna zidd şəkildə həmin idarənin rəhbər və sıravi işçilərinə həvalə edir. Görəsən, bu vəzifəli şəxs öz nə işlə məşğuldur?! Cənab Ramiz Nəbiyevin nəzərinə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tövsiyəsini çatdırmaq lazımdır: "Heç kim qanundan yuxarı ola bilməz. Qanun qarşısında hamı bərabərdir. Dövlət məmurunun üzərinə düşən vəzifə və məsuliyyət onları dediyim prinsiplərə riayət etmələrinə sövq etməlidir. Əks təqdirdə onlar cəzalandırılacaq və artıq gördüyümüz işlər bunu təsdiqləyir. Böyük vəzifə böyük imtiyaz deyil, böyük məsuliyyətdir. Ona görə bu məsuliyyəti dərk edərkən siz öz addımlarınızı da bu istiqamətdə atmalısınız".

Onu da qeyd edim ki, 22.10.2023-cü ildə və 29.02.2024-cü ildə Mehriban xanımın qəbulunda olmuşam. Bu qəbullarda olduğum üçün Anar Qədiməliyev tərəfindən başıma bu oyunlar gətirilir.

Məktəbin direktor müavinləri onlardan zavuç İmamverdiyeva Səbinə Arif qızı kimilərə arxalanıb, məktəbdə bu qədər maliyyə pozuntusu edirlər? Onlar bu əməllərindən çəkinmirlər.

Azərbaycan bölməsinin müəllimləri necə rus bölməsində sinif rəhbərliyi, dərs və ev dərsləri aparır? Bunlar hamısı tədrisdə maliyyə pozuntusudur. Güman edirəm ki, yeni teyin olunmuş müdir Gulbəniz müəllimə bunlara yol verməyəcək, dostbazlıq və qohumbazlıq oyunları bitəcək.

**Hazırladı: Jalə FAMİLQIZI**

***Redaksiyadan: Yazıda adları qeyd olunan şəxslərin mövqeyini dərc etməyə hazırıq.***

Hazırda "narkotik böhranı" bəşəriyyətin ən böyük problemlərindən birinə çevrilib. Artıq narkomaniyadan xilas yolu qlobal səviyyədə aparılan müzakirə mövzusudur. Heç də təsadüfi deyil ki, planetin ən öndə gedən ölkəsi statusunu əlində saxlayan ABŞ kimi nəhəng ölkə də "narkotik burulğanı"ndan çıxa bilmir. Üstəlik, o da maraqlıdır ki, ABŞ başda olmaqla, bir sıra inkişaf etmiş ölkələrdə "narkotik epidemiyası"nın inkişaf meyarı fentanildən ölənlərin sayı ilə ölçülür...



# Supergücləri üz-üzə gətirən "fentanil epidemiyası"

## ABŞ və Çin narkokartellər qarşısında həqiqətən acizdir?..




Qeyd edək ki, konkret olaraq ABŞ-da narkomaniyanın 10 illik dəhşətli yüksəlişindən sonra vəziyyətin yaxşıya doğru dəyişəcəyi ilə bağlı müəyyən ümidlər də yox deyil. Hətta Co Baydenin administrasiyası bildirir ki, həddindən artıq dozadan ölümün illik sayı nəhayət yumşaq yavaşlama istiqamətini alıb. Məsələn, 2022-ci ilin statistik rəqəmi 2021-ci ildən cəmi 5% yüksəkdir ki, bu, artım tempinin zəifləməsi anlamına gəlir...

Bununla yanaşı, hələ də fentanil və digər sintetik opioidlər ildə təxminən 75 000 insanın ölümünə səbəb olur ki, bu da 2019-cu ilin göstəricisindən iki dəfə çoxdur. Lakin Amerika tarixindəki ölümcül narkotiklə mübarizədə bu uğurlu rəqəm sayılır. Rəqəmlərin kiçik olması o demək deyil ki, mübarizə getmir. Hökumət "narkotik epidemiyası"nın qarşısını almaq üçün rekord məbləğlər xərcləyir. Vaşinqton həm də öz siyasətində yaradıcı yanaşma sərgiləməyə çalışır. Ölkənin daxili işlər naziri Alexandro Mayorkas bu yaxınlarda "The Economist"ə Meksika sərhədində fentanil aşkarlanmasını artırmaq üçün süni intellektdən necə istifadə edildiyini izah edib. Dövlət katibi Antoni Blinken isə bir müsahibəsində insan alveri ilə mübarizə və fentanil istehsalı üçün lazım olan kimyəvi maddələrin - prekursorların beynəlxalq ticarətini tənzimləmək üçün diplomatik təşəbbüslərin pik həddə çatdığını vurğulayıb. Hər ikisi də ABŞ daxilində narkotikə tələbatı azaltmaq səylərini ortaya qoyub.

Məlumatlara görə, Bayden prezident olduqdan sonra federal hökumət ilk dəfə müalicəyə qadağalardan daha çox pul ayırıb. "Biz ictimai məlumatlandırmadan (maarifləndirmə) tutmuş müalicəyə, sağalmaya, antidotlara qədər hər şeyə milyardlarla, on milyardlarla dollar sərf edirik", - Blinken qeyd edir. Mayorkas isə öz növbəsində bildirir ki, administrasiyanın səyləri olmasaydı, insan tələfatı daha pis və narkotacirlərinin qazancı daha da böyük olacaqdı.

### Fentanil sərhəddən necə keçir...

Əlbəttə, sərhədin özündə problemin miqyası aydındır. Fentanil yüksək konsentrasiyaya malikdir və buna görə də qaçaqmalçılıq yolu ilə aparılması asandır. Milli Təhlükəsizlik Şurasından Xuan Qonzalesin qeyd etdiyi kimi, agentlər kokain kimi tonla daşınan narkotikləri deyil, kiçik həblərin anbarlarını axtarırlar. İnsan alverçiləri onları yük maşınının və ya avtomobilin istənilən küncündə gizlədə bilərlər. Onları ticarət daşımalarında, "Coca-Cola" şüşələrinə, kokos qabıqlarına, qazon aksesuarlarına və ya avtomobil akkumulyatorlarına dolduraraq gizlədirlər. Fentanili təkərlərə və dişli çarxalara yığırlar. Kiçik miqdarlar kifayətdir: fentanil o qədər güclüdür ki, deyilənə görə, Meksikadan gələn üç yük maşını Amerikanın bir il ərzində bütün tələbatını təmin edə bilər. Sərhəddə fentanil müsdirələri keçən il demək olar ki, iki dəfə artıb. Amma dəqiq deyil ki, bu, daha effektiv ələk-vələk etmənin, yoxsa qeyri-leqal alverin daha çox artmasının nəticəsidir. Süni intellektin çaldığı səs avtomobil rentgenoqrafiyadan keçən zaman qəribə bir şeyin olub-olmadığını müəyyən etmək üçün istifadə olunur. 2023-cü ilin əvvəlində sərhəd postlarında 11 belə sistem fəaliyyət göstərirdi. İndi onların sayı 31-dir, daha 26-sı da quraşdırılır.

Amma nədənsə ABŞ-a daxil olan yük maşınlarının yalnız 20%-i və avtomobillərin 5%-dən azı rentgen müayinəsindən keçir. Administrasiya bunu artırmaq və həm narkotik alverini, həm də qeyri-qanuni immiqrasiyanı cilovlamaq üçün sərhədə daha çox agent göndərmək istəyir. Mayorkas qeyd edir ki, iki problem olduqca fərqlidir: narkotiklərin böyük əksəriyyəti qeyri-qanuni miqrantlar tərəfindən Amerikaya gətirilmir, kimlər daimi sərhədd keçirsə onlarda ələ keçirilir.

Lakin keçən ay Konqresdəki respublikaçılar prezidentliyə namizədə Donald Trampın göstərişi ilə sərhəddə polis fəaliyyətini gücləndirəcək iki partiyalı qanun layihəsini səsvermədən keçməyə qoymadılar. Görünür, Tramp Baydenin sərhədlə bağlı uğura nail olmasını istəmir.

Beləliklə, Amerikanın opioid epidemiyasına diqqət siyasi dönəmlə artır və azalır. Tramp Bayden dövründə "sərhəd xaosunu" pisləməkdən məmnundur. Miqrasiya onun əsas mövzusu olsa da, buna fentanil də daxildir. O, ilk dəfə 2020-ci ildə Meksikayla əməkdaşlıq və ya onsuz narkotik dəstələrini məhv etmək üçün ABŞ qoşunlarını göndərmək ideyasını irəli sürdü. O vaxtdan bu fikir Respublikaçılar Partiyasının daxilində doktrinaya çevrildi və narkokartellər rəsmi olaraq terror təşkilatı elan edildi. Maraqlıdır ki, narkotacirlər də vəziyyətə və yeniliklərə adaptasiya olunur. Məsələn, 2022-ci ildə ABŞ-Meksika sərhədində ələ keçirilən bütün fentanilin yarıdan çoxu San Dieqo, Kaliforniya yaxınlığında tutulub. Lakin son vaxtlar Arizona ştatının Tuson şəhərindən cənubda yerləşən sərhəd xətti əsas tranzit nöqtəsinə çevrilib. Arizona ştatının Noqales şəhərindəki bir məmur öz qoxubilən iti "Reks"i başqa avtomobilin dövrəsində gəzdirərkən "Hər şey biz tərəfdən keçib gedir" deyir. Bəzi məmurlar avtomobildə axtarış apararkən fentanillə təmas halında özlərini ayaqqabı örtükləri, əlcəklər və maskalarla qoruyurlar. Digərləri üstlərində təsadüfən fentanilə çox təmas halının qarşısını almaq üçün həddən artıq dozanın müalicəsində istifadə olunan "nalokson" dərmanını saxlayırlar.

### Badalaq

Yüklərdə və maşınlarda fentanil axtarışı edən məmurların ehtiyatla davranışı anlaşılandır. Fentanil heroindən 50 dəfə güclüdür. Bəzi insanlar onu ilk dəfə qəbul edəndə ölürlər. Uzun müddətdir ki, fentanil kiçik dozalarda ağrıkəsici kimi təyin edilirdi. Bunu etmək asandır, buna görə də ABŞ-da 2010-cu illərdə əczaçılıq şirkətləri tərəfindən satılan reseptli opioidlərin sui-istifadəsinə qarşı mübarizə aparmağa başlayanda, narkotik tacirləri narkomanlara fentanil satmağa başladılar. Fentanilin cazibəsini artıran nüans onun güclü olmasıdır. Məsələn, "The Economist" də Tusonda keçmiş narkoman Haynesin bununla bağlı ilk təcrübəsi nəşr olunub: "Mən bunu sınadım və sonra həyatımın üç gününü itirdim. Öz-özümə dedim, vay, bu nə dəlisov bir şey idi. Bunu bir də etmək istəyirəm".

Fentanilin ölkəni necə və hansı sürətlə pis günə qoyduğunu ifadə etmək çətindir. Fentanil 2013-22-ci illərdə narkotik aludəçisi olan bir milyon amerikalının üçdə birindən çoxunu öldürdü. Covid-19 pandemiyası zamanı ölümlər daha da artdı və o vaxtdan bəri azalmır. Onun sürətlə yayılmasının bir səbəbi ucuz olmasıdır. Haynes əvvəlcə onu sınayıb, çünki heroindən daha ucuz olub. ABŞ-ın "Narkotiklərlə Mübarizə Agentliyi"nin (DEA) üç il əvvəl başlatdığı ictimai maarifləndirmə kampaniyasındakı şüar kimi -"Bir doza bir dollardan ucuz başa gələ və bu bir həb öldürə bilər".

Məlumata əsasən, əvvəlcə ən çox fentanil Amerikaya birbaşa Çindən gəlib. Lakin 2019-cu ildə Çin hazır fentanil və onun istehsalı üçün ən çox istifadə edilən iki kimyəvi maddənin satışını qadağan etdi. Bu nöqtədə Meksika Çindən müxtəlif prekursor kimyəvi maddələr idxal edərək tədarük zəncirində mühüm rol oynadı, fentanil burada "bişirildi" və şimala göndərildi.

Tusonda sağalmaqda olan başqa bir keçmiş narkoman Eşli əvvəllər bu işin başında duran meksikalı qanqsterlərin ortağı olub. Əvvəlcə reseptli opioidlərin, sonra heroinin və nəhayət fentanilin daimi istifadəçisi olduqdan sonra o, vasitəçidən ayrılıb, birbaşa mənbəyə - "Sinaloa" kartelinə, Meksikanın şimal-qərbində yerləşən narkokartelə üz tutub. "Sinaloa" karteli Meksikanın əsas fentanil istehsalçısıdır. Eşli əvvəllər Sinaloa əyalətinin paytaxtı Kuliakana və Meksikanın digər şəhərlərinə nağd pul aparırdı. O, bu pulu böyük miqdarda fentanil, kokain və met üçün ödəyəcəkdi. Amma hökumət onu yaxaladıqdan sonra 2022-ci ildə narkotik alverində ittiham olunub. Onu 5-10 il həbs cəzası gözləyir.

### "Qucaqlaşmalar" və quldurlar

ABŞ hakimiyyəti, təbii ki, "Sinaloa" karteli ilə mübarizə aparmağa çalışıb. Lakin bu səylər Meksika prezidenti Andr?s Manuel L?pez Obradorun kifayət qədər sübuta baxmayaraq, fentanilin Meksikada istehsal olunduğunu etiraf etmək istəməməsi ilə çətinləşib. Məsələn, bir il əvvəl Meksika ordusu Kuliakandakı bir narkotik laboratoriyasında yarım milyondan çox fentanil həbi ələ keçirdiyini söylədi. Obrador aprel ayında ABŞ prokurorları tərəfindən "Sinaloa" kartelinin liderlərinə qarşı irəli sürülmüş narkotik ittihamlarını "heç bir şəraitdə qəbul edilməməli olan təhqiramiz, təkəbbürlü müdaxilə" adlandıraraq etiraz etdi. Obradorun hökuməti narkotiklə mübarizə üzrə xarici agentlərinin Meksikada işləməsini çətinləşdirmək üçün təhlükəsizlik qanununa dəyişiklik etdi. O, narkobandalara üstün gəlmək üçün "güllə atmaq deyil, ağuşuna almağı" tövsiyə edir, yəni cinayətin cazibəsini azaltmaq üçün hökumət yoxsullara yardımı artırmalıdır.

Keçən il Meksika fentanilin prekursorlarının idxalına nəzarət etməyə yönəlmiş güclü qanunlar qəbul etdi. Bir il əvvəl Meksika ordusu "Sinaloa" kartelinin "Çapitos" adlanan dörd əsas patronundan birini həbs etdi, onlar kartelin qurucusu, hazırda Amerikada həbsdə olan Xoakin "El Çapo" Quzmanın oğullarıdır. Sentyabrda ələ düşən Çapito Ovidio Quzman Amerikaya təhvil verildi. Bir neçə gün sonra bəlli oldu ki, "Sinaloa" ərazisində insanlara fentanil hazırlamamaq barədə xəbərdarlıq edilib. Yəni yalnız başçıya yaxın şəxslərə fentanil bişirmə icazəsi verildi. Hətta "fentanil aşbazları" əvvəl marixuana əkdikləri torpaqlarda qarğıdalı və buğda becərməyə başlayıblar.

### Məğlubiyyət qənimətləri

Meksikalı məmur deyir ki, Kuliakandakı anbarın ətrafında polis basqınlarında ən azı 2 milyon fentanil həbi ələ keçirilib. Həyətdə müsadirə edilmiş həb dəzgahları dayanır, hansı ki, onların hər biri saatda 10 000 həb hazırlaya bilər. Sinaloa böyük və kənd tipli şəhərdir. Yolları o qədər pisdir ki, ştatın bəzi hissələrinə çatmaq beş gün çəkə bilər. Fentanil aşpazlarının gizlənmək üçün çoxlu yeri var və hökumətdəki məmurların içində basqın olacağına dair məlumat olan zaman onu çatdıran çoxlu "xəbərçilər" var. Bir yük maşınının boşaldılması, sökülməsi və hərtərəfli axtarışı "iki-üç həftə" çəkə bilər. Prosesə ordu və polis kömək edir, lakin problemin miqyasını nəzərə alsaq, bu yetərli deyil. Mübarizənin gücünü üç dəfə artırmaq belə, uğura zəmanət verə bilməz. ABŞ-ın mübarizə üçün bütün texnologiyası var, amma bunu dayandıra bilmirlər. Keçən il Amerikanın ittiham aktında deyilirdi ki, "Sinaloa" karteli Çindən gələn 800 dollarlıq prekursorları 640 min dollarlıq gəlirə çevirə bilər. "Sinaloa" karteli həqiqətən fentanil istehsalını cilovlayırsa, bu, narkotikin şimala axınını dayandırmayacaq. Bunun əvəzinə, Meksikadakı ABŞ rəsmiləri deyirlər ki, istehsal sadəcə olaraq daha dağınıq və pərakəndə hala gəlir. Keçmiş fentanil aşpazı bildirib ki, o, cənub əyaləti olan Çiapasda və şərqdə Verakruzda, eləcə də Mexikoda fentanil laboratoriyalarının qurulmasına kömək etmək üçün dəvət olunub. "Los Çapitos bütün Meksikaya nəzarət edə bilməz. Bu çox asandır - mən asanlıqla yeni laboratoriya qura bilərəm", deyə fentanil aşbazı bildirir.

Bu oyun Çində də oynanılır. Meksikada olduğu kimi, hökumətin fentanillə mübarizə səyləri Pekinin ABŞ-la işinin nə qədər yaxşı getdiyindən asılı olaraq dəyişir.

*(Ardı var)*

**Hazırladı: İ. SABİRQIZI**



# Unudulmayan kədərli tarix

**Masallının Tarix- Diyarşünaslıq Muzeyində "31 Mart- Azərbaycanlıların Soyqırımı Günü" münasibətilə "Tarixi yaddaşdan silinməyən soyqırımı" mövzusunda dəyirmi masa keçirildi.**

Tədbiri giriş sözü ilə açan muzeyin direktoru, Azərbaycan Jurnalistlər Birliyinin üzvü Əntiqə Tağıyeva dedi:- Ermənilər tərəfindən son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə, soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, məşəqqətlərə məruz qalmışdır. 31 mart azərbaycanlıların soyqırımı bizlər üçün unudulmayan kədərli bir tarixdir.

Digər çıxışçılarda tarixin müxtəlif dövrlərində ermənilər tərəfindən soyqırımına məruz qalan Azərbaycan xalqının üzləşdiyi dəhşətlərdən, hadisələrin ilkin baş vermə prosesindən, hüquqi aspektdən geniş danışıldı.

O da bildirildi ki, Ali Baş Komandan İlham Əliyev və qeyrətli Vətən övladlarının qəhrəmanlığı sayəsində 31 Mart -azərbaycanlıların soyqırımı, Xocalı soyqırımı və ümumən torpaqlarımız uğrunda şəhid olanların qısası alındı. Xalqımız və dövlətimiz Soyqırımı qurbanlarını heç vaxt unutmur və unutmayacaq.

Yekunda tədbir iştirakçıları 31 Mart -Azərbaycanlıların soyqırımı gününə həsr olunmuş sərgi ilə tanış oldular.

*Zəfər ORUCOĞLU*
*Azərbaycan Jurnalistlər Birliyinin üzvü*

# "Keçmiş məhkumlara pis münasibət bəslənilir"

## İctimai Birlik sədri tərəfindən ölkə başçısına müraciət

### "Penitensiar Xidmətin rəhbərliyi ilə yerli İcra Hakimiyyəti orqanları arasında memorandum imzalanmalıdır..."



**"Hüquqları Pozulmuş Məhkumların Müdafiəsi və Maarifləndirilməsi" İctimai Birliyinin sədri Abdullayev Böyükağa Abdulla oğlu tərəfindən "Hürriyyət-"in redaksiyasına şikayət məktubu daxil olub. Qəzetimiz vasitəsilə Prezident İlham Əliyevə, Baş nazir Əli Əsədova, Ədliyyə naziri Fərid Əhmədova, Ədliyyə nazirinin müavini, Penitensiar Xidmətin rəisi Mirsaleh Seyidova müraciət edən B. Abdullayevin müraciətini olduğu kimi təqdim edirik:**

**"Cənab Prezident!**

Sizin tərəfinizdən məhkumların sosial reabilitasiyası ilə bağlı atılan hümanist addımlar, verdiyiniz tapşırıqlar və tövsiyyələriniz əsasında Ədliyyə Nazirliyi Penitensiar Xidməti tərəfindən görülən işlər məhkumların yaşayış şəraitlərinin yaxşılaşdırılmasını, onların cəmiyyətə saglam, adaptasiya və reabilitasiya olunmuş formada qayıtmaları istiqamətində həyata keçrilən tədbirlər, reforma və islahatların müsbət nəticələri danılmaz faktdır.

Ancaq məhkumlar cəzalarını çəkib qurtardıqdan sonra cəmiyyətə reabilitasiya və adaptasiya olunmalarında bir sıra ciddi problemlər də vardır. Bu da onların yenidən qısa müddət ərzində təkrar cinayət törətmələrinə, yenidən məhkumluq həyatı yaşamalarına səbəb olur. Bu problemlərin və səbəbələrin aradan qaldırılması üçün mərkəzi ica hakimiyyəti orqanları tərəfindən hərtərəfli araşdırılmır aparılmır, fəaliyyət proqramları hazırlanıb həyata keçirilmir. Bu sahədə Sizin tərəfinizdən əsası qoyulmuş islahatların həyat keçirilməsi üçün geniş və təxirəsalınmaz tədbirlər görülməlidir.

**Hörmətli Prezident!**

Son 23 ildə 300 mindən yuxarı məhkumluq həyatı yaşamış vətəndaşımız var. Həmin şəxslər cəzalarını çəkib qurtardıqdan sonra cəmiyyətə yararlı şəxs, vətəndaş kimi adaptasiya və reabilitasiya olunmaları üçün hər hansı bir şərait yaradılmır, tədbirlər görülmür. Yerli və mərkəzi icra hakimiyyəti orqanlarının, bələdiyyələrin və digər özünü idarəetmə təşkilatlarının da normal münasibətlərindən, diqqətlərindən kənarda qalırlar. Nəticədə bu koteqoriyaya aid vətəndaşlara olan diqqətsizlik, aşağılamalar və təhdid hallarının olması onların cəmiyyətə adaptasiya olunmalarına ciddi problemlər yaradır



və adaptasiya oluna bilmirlər. Sonda onların 80-90%-i təkrar cinayət törədirlər və yenidən məhkumluq həyatı yaşayırlar.

Bu da insan hüquqlarının pozulmasına, dövlətin təməli hesab olunan ailələrin dağılmasına, gələcək nəsillərin məhv olunmasına gətirib çıxarır.

Qanunvericilikdə bu məsələlərlə bağlı kifayət qədər tənzimləyici hüquq normalarının olmasına baxmayaraq, icra-nəzarət mexanizmində ciddi boşluqlar vardır. Məmurlar da bu boşluqlardan sui-istifadə edərək, cəmiyyətin həssas və müəyyən mənada ziddiyyətli təbəqəsi hesab edilən keçmiş məhkumlara pis münasibət bəsləyirlər, hətta xidməti iş otağından qovaraq, özlərindən uzaqlaşdırırlar.

İctimai Birlik olaraq apardığımız araşdırmanın nəticəsində məlum olmuşdur ki, azadlığa çıxmış məhkumlar yaşadığı ərazinin Polis Şöbələrində qeydiyyatda olmalarına baxmayaraq, yerli İcra Hakimiyyəti orqanlarının rəhbərləri və bələdiyyə qurumları, rəhbərlik etdikləri ərazi vahidliyi üzrə qeydiyyatda olan neçə vətəndaşın məhkumluq həyatı yaşadığını və il ərzində neçə vətəndaşının məhkumluq həyatını başa vurduqdan sonra azad cəmiyyətə dönüş etdiyindən məlumatsızdırlar. Çünki vətəndaşın taleyi onları maraqlandırmır.

İctimai Birlik olaraq hesab edirik ki, belə halların aradan qaldırılması, onların cəmiyyətə adaptasiya olunması üçün yerli İcra Hakimiyyəti və Mərkəzi İcra strukturlarının regional təşkilatları tərəfindən birmənalı şəkildə işlə təmin edilmələri və digər problemlərinin həll edilməsi məqsədi ilə Ədliyyə Nazirliyi Penitensiar Xidməti ilə yerli İcra Hakimiyyəti və Mərkəzi İcra Hakimiyyəti orqanları arasında memorandum (hüquqi sənədin) imzalanması bütün bu neqativlərin aradan qaldırılmasına misilsiz köməklik göstərəcəkdir.

**Cənab Prezident!**

Yuxarıda qeyd edilən problemlərin köklü şəkildə həll edilməməsi səbəbindən dövlətin bu saheyə ayırdığı vəsaitlər, göstərdiyi diqqət və qayğı öz müsbət nəticəsini tam şəkildə verə bilmir. Sadə və bəsit formada desək, puç olur. Bütün bu məsələlərin kökündən həll edilməsi üçün Ədliyyə Nazirliyi dövlətin aidiyyəti mərkəzi orqanları ilə monolit və qarşılıqlı şəkildə fəaliyyət proqramları işləyib hazırlamalı və həyata keçirməlidir. Bundan sonra qısa zaman ərzində bu sahədə kifayət qədər uğur əldə etmək mümkün olacaqdır. Bunun nəticəsində cəmiyyət sağlamlaşacaq, vətəndaşların cinayət törətmələrinin qarşısı mütləq mənada azalacaqdır.

Qanunvericilikdə bu məsələlərlə bağlı kifayət qədər tənzimləyici hüquq normaları olmasına baxmayaraq, icra mexanizmində ciddi boşluqlar vardır. Məmurlar da bu boşluqlardan sui-istifadə edərək, cəmiyyətin həssas və müəyyən mənada ziddiyyətli üzvləri hesab edilən, keçmiş məhkumlara pis münasibət bəsləməkdən çəkinmirlər. Belə halların aradan qaldırılması, cəmiyyətə adaptasiya olunmuş məhkumların, yerli İcra Hakimiyyəti və İcra strukturlarının mərkəzi regional təşkilatları tərəfindən işlə təmin edilməsi üçün Ədliyyə Nazirliyi Penitensiar Xidməti ilə yerli İcra Hakimiyyəti və Mərkəzi İcra strukturlarının regional təşkilatları arasında hər-hansı bir memorandum imzalanması boşluqların aradan qaldırılmasına təkan verə bilər.

**İctimai Birlik olaraq təklif edirik:**

Məhkumların gələcəkdə təkrar cinayət törətməmələri, cəmiyyətə adaptasiya olunmaları, işlə təmin edilmələri və sair problemlərin aradan qaldırılması ilə bağlı Ədliyyə Nazirliyi Penitensiar Xidmətin rəhbərliyi ilə yerli İcra Hakimiyyəti orqanlarının arasında memerendum imzalansın və yerli İcra Hakimiyyəti orqanları tərəfindən məhkumların işlə təmin olunmaları və sair problemlərinin aradan qaldırıldığı barədə Ədliyyə Nazirliyi Penitensiar Xidmətinə hesabat verilsin.

Qabaqcadan minnətdarlığımızı bildiririk".

**Hazırladı: KƏNAN**

Hürriyyət
Müəllif
SİZİN ÜÇÜN QƏZET
№12 (3303) 2 Aprel / 2024-cü il
www.hurriyyet.az; / hurriyyet@mail.ru


# Sümsüy itin monoloqu



Eldəniz QULİYEV

...Mən itəm! Özü də lap sümsüyünnən. Sümsük şəhər tulası. Düzdü, adam kimi oxuyub-yaza bilmirəm, amma onların dediklərini gözəlcə başa düşürəm. Yəqin bəziləri qımışacaq ki, it hara, «başa düşürəm■ hara?.. Bəri başdan hürüm ki, belələri səhv eləyillər... Çünki it olanda noolar? Başım var? Var! Baş da varsa, deməli, onun içində yaxşını pisdən, tüstünü hisdən ayıra bilən bir şey olmalıdı...

Uzağa getməyək, götürək bizim şəhəri! Kor-kor, gör-gör; şəhər çox dəyişib, lap çox. Yəni bunu başa düşməkçün nə oxuyan olmaq lazımdı, nə də yazan, - elə hürən oldun bəsdi.

Hamı harasa qaçır, tələsir, nəsə axtarır, vurnuxurg Qabaqlar belə deyildig yox, mən bir şey zingildəmirəm, əksinə, tələsmələri yaxşıdı, nə qədər çox tələssələr, vurnuxsalar, çaxnaşsalar, mənə bir o qədər az fikir verəllər. Bax, əvvəllər qırmızıpapaqlar məni görəndə neyçünsə özlərinnən çıxırdılar: «Paşol, paşol otsyuda!■ - deyib, qovurdular, elə bil sümsüy it yox, ekstremis - görürdülər, özü də saqqallısınnan!

Amma indi... indi elə deyil. Onlar da dəyişiblər, əllərinə rezin dəyənək götürüblər. Yanımnan keçəndə gülümsüyüllər. Bəzisi hətta məni görəndə şapkasını düzəldir. Elə bil mənə yox, güzgüyə baxıllarg Bir də neyniyəcəklər mənə? İstəsələr belə, bu tıxaclarda tuta bilmiyəcəklər. Çünki bilillər ki, bu yollara nə adam dözər, nə də maşın. Bu yollar insan üçün deyil, yəni, buna dözsə-dözsə, ancaq it dözər, özü də sümsüyünnən.

Nəysə, deyəsən, çox uzağa cumdum, mırıltımın canı budu ki, görəsən, bu adamlar hara tələsillər, niyə tələsillərg Yenə qabaqlar olsaydı, ulayardım ki, bəs dükana-bazara qaçıllar ki, nəysə alsınlar, nəysə satsınlar. İndi adamların dükana girməyilə çıxmağı bir dişdəmlik olur. Özü də necə girillərsə, yazıqlar, eləcə də əliboş çıxıllarg

Amma bazarg bazar başqa məsələ! Ordan çıxan-çıxan pomidor kimi qıpqırmızı çıxır; elə bil içəridə onları yaxşıca şilləleyib buraxıblar. Ya da, elə bil, bazarda xiyardan başqa heç nə tapmayıblar, xiyarsatan da deyib ki, bəs, alsan da budu, almasan da!

Görürsüz, bunları ki mən görüb başa düşürəm, deməli, kəlləmin içində bir çimdik nəsə var...

Misal üçün, mən dəmir-dümür dükanına baxıram- ham-ham, yox-yox, qəsdən yox, elə-belə; həmin dükanın qabağında yekə bir çala var, çalanın içinnən də iki yoğun isti boru keçir. Qarnım tox olanda özümü verrəm ora, turbaların üstündə şöngüyüb özümçün marıtdıyıram...ham. Görürəm ki, həmin o dəmir-dümür dükanına çoxlu adam girib-çıxır. Baxır-amg ham-ham ki, gündə filan qədər kəndir, filan qədər də qıfıl alıllar. Elə bil dükanda qıfılla kəndirdən başqa heç nə satılmır. Baxıram... hamg baxırham...ham ki, qıfıl alanların çoxu qəşşəng geyinən, təmiz ayaqqabılı, kabab, bir də vəzifə qoxulu adamlardı. Hətta bəzisinin yaxasına bayrağa oxşayan nişan taxılıb. Ha vaqqıldıyıram, ha büzüşürəm, ha gərnəşirəm,- ağlım bu işdən bir şey kəsmir... Tutalım, təzə ayaqqablılar o qıfılları köhnə ayaqqablıların qorxusunnan alıllar... Bə döşü nişanlıların nəyinə lazımdı qıfıl?..

Kəndir alanlar sallaq-sullaq paltar geyinənlərdi - ayaqqabıları əyridaban, hisli-paslıdı, özləri də mazut, bir də kasıbçılıq



Kəndir alanlar sallaq-sullaq paltar geyinənlərdi - ayaqqabıları əyridaban, hisli-paslıdı, özləri də mazut, bir də kasıbçılıq qoxusu verillər... Kəndiri sinələrinə sıxıb alınlarını qırışdıra-qırışdıra gedillər... Elə yeriyillər ki, elə bil day bir də yeriməyəcklər... ağır-ağır, dalğın-dalğın; hara gedillər, kəndiri neynillər? - adamoğluyham... ham, əyər bir şey başa düşürəmsə!..

qoxusu verillərg Kəndiri sinələrinə sıxıb alınlarını qırışdıra-qırışdıra gedillərg Elə yeriyillər ki, elə bil day bir də yeriməyəcklərg ağır-ağır, dalğın-dalğın; hara gedillər, kəndiri neynillər? - adamoğluyhamg ham, əyər bir şey başa düşürəmsə!..

O gün elə həmin dükanın qabağında iki adam söhbət eləyirdi. Biri deyirdi ki, neçə vaxtdı vedrə axtarıram - tapa bilmirəm. O biri də deyirdi ki, heç axtarma qardaş, vedrələrin hamısını hökumət alıb. Alıb ki, öz camaatına bağlasın. Day başa düşmədim hökumət kimdi, vedrəni öz camaatına niyə bağlıyır?.. Biz itlər qədimnən görmüşük ki, vedrəni itin quyruğuna bağlıyallarg

Hamı "qoca ayı axtaran kəpənək" kimi harasa tələsir, qaçır, çaxnaşır, vurnuxur. Elə bil bircə günlük ömür qalıb. Elə bil sabahag hag hag Ham!!! - ümid qalmayıb. Aləm dəyib bir-birinə, kimin ayağı kimin dabanınadı - bilinmir. O günnəri qırmızı, sarı, yaşıl işıqları olan bir dirəyin altında sərilib yatmışdım. «Yatmışdım■ deyəndə, biz sümsük itlər üçün nə var- harda gəldi kəlləni atıb şellənirik. Əsas odu ki, pəncələrini içinə yığasan, burnunu gizlədib domuşasan özünçün. Quyruğun bayırda qaldı bəsdi,- hərdən-hərdən bayraq kimi sağa-sola yellə, yəni «mənim sizinlə işim yoxdug■ Hə, həmin o dirəyin altında qorxub-hürkmədən şellənmək olur. Çünki düz dörd yolun ortasındadı, bəni-insan ayağı da dəymir ora; yolun ortasında adamın nə azarı var? Hər tərəfdən maşınlar "dızz-vızz"-gəlir dirəkdəki işıqların qabağında ya dayanır, ya da ötüb keçir. Orda uzanıb mürgüləmək olmazın ləzzətini verir mənə. Elə bil, ilikli sümük gəmirrəm, neyçün ki, bu «dızz-vızz■lar, bu bippiltilər lay-laya oxşayıllarg Harda qaldım?.. Hə, dünəndi, ya srağagün, özümçün şellənmişdim həmin o rəngli işığı olan dirəyin dibində, nətər oldusa, huş apardı məni. Bir hovurdan dik atıldım. Nə görsəm yaxşıdı? Gördüm ki, başımın üstündəki işıqların hamısı birdən yanır: qırmızı da, sarı da, yaşıl da eyni vaxtda yanırdılar. Yolda bir həngamə, bir hoqqa, bir mərəkkə vardı ki, gəl görəsən! Dörd tərəfdən gələn maşınlar bir-birinə pərçimlənib dayanmışdılar. Bir vur çatdasın, bir vurhavur, bir bippilti, bir tırtıltı, bir gupbultu vardı ki, lap quyruğunu qısdızqırtg

Hə, zingiltimin canı budu ki, mən bu «tupoy■ it başımla başa düşdüm ki, axır zamanlar adamlara noolubsa, bütün şəhər elə bu cür yaşayır. Bir yannan göy işıq, bir yannan sarı, bir yannan da qırmızı. Yəni həm hər şeyə icazə var, həm də heç nəyə icazə yoxdu. Həm yeri, həm də yerimə! Həm danış, həm də danışma!.. Belə şey olar, belə yaşayış olar? Özü də mən bu mişoppa başımla qanıram ki, təkcə bizim şəhərdə yox, hər yanda vəziyyət belədi. Elə bil hər yanda hamı elə bu sayaq yaşayırg Birdən kiməsə elə gələ bilər ki, mən başımnan yekə ham-ham eliyirəm, yəni özgə yerlərdən, şəhərlərdən-zaddan xəbərim olmaya-olmaya hürürəm...Belə deyil.

Bir gün dəcəl bir uşaq dartıb məni evlərinə aparmışdı. Yedizdirib-içizdirib özüdanışan, özügöstərən qutunun qabağında şöngütdü, dedi ki, it oğlu it, otur bax, gör bizim qəşəng ölkəmizdə nələr var! Mən də baxdım. Nələr gördüm, nələr gördüm?! Adam oğluyam əyər yalan mırıldayıramsa. Elə şeylər gördüm ki, tüklərim biz-biz oldu; deməyəsən, bizim şəhər kənddə-kəsəkdə olanların yanında toya getməliymiş. Butulka üstündə baş yarıllar. Bir parça ət üstə bir-birini boğurlar. Hara baxırsan, hirs-hikkə, dava-şava. Dava, hirs-hikkə! Dava eləməyənlər isə iclas eliyillər. Nə qədər iclas keçirmək olar, a başıva dönüm?! Vay o şəhərlərin, kəndlərin itlərinin halına! Yəqin öz quyruqlarını gəmirməkdən başqa, yeməyə bir şey tapmırlar. Anladım, qandım ki, dünya yaman qarışıb...

gHə, uşağın anası gəlib məni qovmasaydı, bəlkə də həmin qutuya çox, lap çox baxacağdım - canım çıxanacan baxacağdım...

Ehh, nəysəg

Hə, bir-iki ağız da öz müftəyeyən həmcinslərim haqda hürüm... Əvvəllər ev itləri vecinə almırdılar məni, yanımnan burcuda-burcuda ötüb keçirdilər, - fors eliyirdilər. Yəni «Tində-bacada vaqqıldaya-vaqqıldaya sümük gəmirən sümsük it hara, maşında gəzən, isti evdə yatan tumarlı it hara?!■ Beləcə, fors eləyə-eləyə evlərini yıxdılar. Qulağımı gəmirdərəm, bu dəqiqə həmin o sığallı itlər mənə - mən sümsüy itə həsəd aparmırsa. Niyə? Çünki yeməyə bir şey tapmırlar. Qaraciyər paştetinə, «sveji■ ətə, qətletə, qənfetə öyrəşən it itdi bəyəm? İndi qalıblar mırıldaya-mırıldaya,- nə sümük gəmirə bilillər, nə də boğuşa... Tumara öyrəşə-öyrəşə yalağlaşıblar: dırnaqları da dişləri kimi pambığa dönübg

Mən bu dınqılı kəlləmlə başa düşürəm: it it kimi yaşamalıdı, adam adam kimi! Adam kimi yaşayan itnən it kimi yaşayan adamın nə fərqi var?..

Amma öz aramızdı, it öz yerində, axır zamanlar it kimi yaşayan adamların sayı yaman artıbg

O gün hansısa bir bankın qabağında iki fəhlə söhbət eləyirdi. Öz qulağımla eşitdim. Biri deyirdi ki, belə də yaşayış olar, belə də dolanışıq olar? Səhərdən axşamacan əlləş-vuruş, tər tökə-tökə işlə, çalış, yenə də ac oğlu acsan! O birisi onun sözünü təsdiq eləyirdi: «Düz deyirsən, qardaş, bizim həyatımız adam həyatı deyil ha, it zülmüdü■.

Hayıf ki, adam kimi danışa bilmirəm, yoxsa deyərdim: «Burda saxla! İt yazıq deyilmi, sizin kimi ömür sürsün?■. Deyərdim ki: " Ay adam, ay insan, sən it əzabı çəkmirsən ey, itdən də betər əzab çəkirsən!.."

Bax, burda məni ağlamaq tutur. Bəli, mən, - əslimi-nəslimi tanımayan sümüy ölüsü sümsüy it, adamların bu halına yanıram, dözə bilmirəmg ağğ ağlayıramgham!

Kim deyir ki, itin ürəyi yoxdu? İtin ürəyi yoxdusa, bə bu göz yaşları hardan əmələ gəlir?..

Yazıq, yazıq adamlar...

Mən Şıxov çimərliyi - Ələt yolunu on illərdir gedib - gəlirəm. Vaxt vardı Xə-zər boyu bu məsafədə açıqlıq insanı dənizə çağırırdı. Cənubdan gələn avtobuslar, yük maşınları dayanır, xüsusilə, sürücülər dənizə tərəf tələsirdilər... Bu xoş əhvalat mənim də başıma gəlmişdi. O günlər bu gün xoş xatirəyə çevrilmişdir. "Ötən günə gün çatmaz", - deyiblər!





Allahverdi Eminov

# Daş hasarlar və qadınlar...

## (Əxlaqi katasisin iflası)

Vaxt yetişdi, illər dolandı, Xəzəri gedib - gələnlərdən gizlətdilər, daş hasara aldılar, yəqin ki, nəzərdən, göz dəyməsindən ehtiyat elədilər daş hasarların sahibləri: Xəzəri, onun çimərliyini sadə Bakı əhalisinin əlindən aldılar, iaşə obyektlərinin, villaların müəllifləri.

Daş hasarları "kəşf" edənlərin lideri Sərvərdi, beş-on ilin içində milyonçu olmuşdu. Bir milyondan az kəsirlə milyard manat kredit götürdü, guya dənizdə qəsəbə evlər ucaldacaqdı. İştaha bax! Zəngin insanlara satacaqdı. Hətta sahildən dənizin ortasına doğru "lağım" atdırdı. Sərvər aldığı krediti əvvəlcə şəxsi arzularına xərclədi, şirkətlər təsis elədi. Və birdən yadına düşdü ki, dövlətdən aldığı kreditlərin haqq - hesabını istəyəcəklər. Elə də oldu, başının üstünü aldılar. Qəsəbə - evlərdən yalnız divarlar qaldı, qağayıların yuvasına çevrildi. Bu dəniz həvəskarı quşlar daş hasarlara qonmadılar, biryolluq tərk elədilər. Amma daş hasarlara alınmış sahələr sanki tikinti meydançasına çevrilməkdə idi, başqa məqsədlə... Yığcam "domiklər", bənzərsiz saunalar, dupduru gölməçələr, cavan qadınların görüş yerləri... daha nələr, nələr! Bir azdan bıçağa gələcək quzuların analarını səsləmələri!

Gündüzlər daş hasarlar qəribsəyir sakinlərsiz, içəridəkilər yaşlı qulluqçulardır: paltar yuyanlar, aşpazlar, qəssablar, digər təbəqələrdir, hər birinin iş və vaxt rejimi vardır.

Sərvər bu yeri "Cənnət Məkan" adlandırmışdı.

Sərvər Nəzakətdən soruşdu.

- Darıxdınız, eləmi?

- Bu yerə bələdliyim yoxdur. Bəlkə tanış edəsiz?

- Tələsmə, - dedi.

Nəzakət körpə ağacın budağını qırdı, yarpağı dodaqları ilə qopardı, qoxulayıb ayaqarı sarı üfürdü, yarpaq kəpənəyin canından qopmuş kimi havada uçdu. Sıx ağacların yarpaqları xışıldayırdı. Otların arasından böcəklərin, arıların uçuşu və vızıltısı eşidilirdi. Onlar ağacların yaratdığı dairəvi yerdə oturdular. Nəzakətin simasında rahatlıq ifadəsi sezilirdi. Güllü ləçəyi başından az qala sinəsinə sürüşsün. Sərvər qadının suallarına qısaca cavab verirdi. Onun ətli, harmonik çiyinlərindən, saçlarından qızılgül ətri səpələnirdi. Dodaqları yay çiyələyi kimi pardaqlanırdı. Çılğın baxışları şölə saça-saça Sərvərin beyninə işləyirdi. Bu anlarda baxışları görüşdü, təbəssümü sinəsində kölgə kimi işığı qovdu. Qadın harada olduğunu düşünüb azca qorxu hissi keçirdi, cavan kişiylə ağacların əhatəsində hətta romantik hissiyyata qapıldı. Bu vaxt səmada gümüşü rəng alan təyyarə elə bil hava qatında asıla qalmışdı. Təyyarənin kölgəsi dəniz boyu sürüşüb uzaqlaşdı. Sərvər ürəyində pıçıldadı: "Qadının bilməli olduğu hər sirri öyrənmək asan iş deyil, bu sınaqdan çıxmış fərziyyədir". Günəşin şəfəqləri qadının açıq sinəsində oynayır, şəfqətlə xumarlanan üzü parıldayırdı, onda soyuq ciddiyyət duyulmurdu.

- Sərvər. - Qadın qəfildən ona tərəf əyildi. - Nazirin at çapmaq "oyunu" nə deməkdir? Məhz nə üçün məni gözaltılamışdır? Bəlkə ərimin xaricdə olmasından istifadə etmək niyyətindədir? Yanılır. Qadın ayağa qalxıb donunu dizindən aşağı salladı, yorğun döşlərini yerində "otuzdurdu" və kinayə ilə güldü, sifəti dartıldı, zərif qırışları hərəkətə gəldi, gülüşü qaşlarına yayıldı, alnında qırmızı ləkələr göründü, sadəlövh heyrətlə dedi:

- Asan ov tapıb, eləmi? - Kədərlə köksünü ötürdü, yumuşaq səslə pıçıldadı. - Hər şeyi vəzifə həll etmir. - Qadının səsində coşğun kin püskürürdü. - Qadını ilahi şəfqətdən məhrum etmək? Daş hasarlar arasında! - Sözünü tamamlamadı. Sərvər Nəzakəti yola salıb kiçik mənzilinə qayıtdı.

- o -

Cənnət Məkanda əkilmiş ağacların yaşı on ilə çatırdı. Sol yanı Xəzərdən əlli metr aralı idi. günəş meşəciyin başı üstündən ılıq şüalar saçır, şəfəqlər odlu zolaqlar kimi ağacları kəsib itirdi, sönmürdü, nazik iynə budaqlara sancılırdı. Təbiət rəngdən rəngə düşürdü, quşların oxumaq həvəsi qalmırdı. Nadir hallarda görünən cırcıramalar isə süsən quşların acığına fasiləsiz oxuyurdular. Bu mənzərə günün əyilməsindən, axşamın gəlişindən xəbər verirdi: ağaclar bir-birinə dayaq durub təhlükədən qorunurdular.

Təbiət Cənnət Məkanda öz fəal həyatını yaşayırdı, qara - boz paltarlı neftçilər ora - bura vurnuxur, tankerlər çəlləkləri uzaqlara daşıyırdılar, fəhlələr ruzisi üçün bunu edirdilər. təbiətdəki canlılar da rahat deyildilər: qarışqalar özündən ağır yükü yuvalarına daşıyır, bal arıları çiçəklərin kasacığına tərəf uçur, milçəklər ağacların gövdəsində açılmış şirımlardan şirə qoparırdılar. Bir - iki günlük ömrünü yaşayan kəpənəklər qoşalaşıb uçurdular. İnsanlar belə həzin və qəmli əhval - ruhiyyəsində bulunurlar. Sərvər kiçik məzilində çarpayıya uzandı, iki əlini yastıq əvəzi başının altında daraqladı. Qadına az - çox bələd olmuşdu. O, bu kübar qadınla tanış edəcəyi adam barədə tərəddüddə idi. Bu qozbel məmur onu boğaza gətirmişdi. Utanıb eləmədən dollar dəstini stolun üstünə qoymuşdu...

Qadın özünə qarşı müstəqildi, qərarını sərbəst verir, içində özünə yer alan boşluq hava ilə dolur, sərt divara dəyib özünə qayıdırdı.

Cənnət Məkanda təkcə bu qadın idimi? Şənbə və istirahət günləri xüsusi təmtəraqlı "domiklər"in şən "bazarı" başlayırdı. Amma daha "yuxarı dairə"dən çəkinirdilər. Sürücülərinin gətirdikləri kübar qadınlar yuyunubətirlənir, çimərlik paltarında bədənlərini nümayiş etdirirlər.

Sərvər öz-özünə danışırdı: - İmkanlı, vəzifəli, arxalı məmurlar nə səbəbdən gültək qadınlarına sahib olmur, xoşagələn yad qadınları ələ keçirmək istəyirlər. Onlara elə gəlir hər bir qadını yatağına darta bilər. Sərvər gecə vaxtı o qadınla Cənnət Məkanda olmalı idi. Bu gənc qadın harada olacağını bilirdi və zəngin hədiyyə onu gözləyirdi. Sərvər bu qadının gözəlliyinə bələddi. Onun çiçək kimi açılmış məxluq olduğunu, eyni zamanda ehtirasını fəhmən sezmişdi, xəyalının obrazına çevrilmişdi. Bu qozbel məmur yataqda qadından zövq ala biləcəkdimi, qeyri - adi hissi yaşayacaqdımı? Belə sağlam və ehtiyaclı qadınların nigah zəncirində atdığı addımlar nə ilə sonuclanır: "Yox, mən fikirləşdiyim kimi deyil, mənim pulum, sərvətim vardır, ömrüm isə tələsir. Mən qozbeləm, bu qisası almalıyam". Bu düşüncələrdən qurtarmamış maşın siqnalı onu yerindən oynatdı...

Cənnət Məkanda general Kəngərlini qeyri - rəsmi Komendant təyin etdilər. O isə "qadınlar şəbəkəsi"nin kuratoru Dilşadı gətirdi, özünə sığal verməyi, qadınları "oxumağı" sevən və bacaran xanımdı. Dilşadın əsas işi Cənnət Məkanda ad günlərinin, böyük və kiçik ziyafətlərin təşkili məsələsiydi. Onun məclisində yeni xanımlar, ərindən ayrılmış cavan qadınlar olurdu. Onun gətirdiyi bir qadını "qulluqçu" adı ilə general Kəngərliyə xidmət etmək nəzərdə tutulmuşdu. Xüsusən, şənbə günləri meşəciyin qırağında, talaya bənzər hissəsində göl yaradılmışdı. Dənizdən gölə yeraltı boru vasitəsilə su axırdı. Hətta gölə xırda balıqlar buraxılmışdı. İlbəil bu balıqlar həm çoxalır, həm də böyüyürdülər. Dilşad xanımın sərəncamında olan qızlar, qadınlar havaya soyuq dəyəndə bədənlərinin təravətini kişilər üçün qoruyurdular. Uşaqsayağı şıltaqlıq edirdilər. sudan çıxacaq göy xələtə bürünüb otaqlara girib bədənlərini qurudur, yelpizləyirdilər. Kimisi kofe içir, şampan şərabını dodaqlarına aparır, kimisi də "mobil" telefonu bədən qoxusu verən sinələrinə sıxır, başqa bir kişi ilə məzələnir. Otaqda fasilədən istifadə edən bu qadınlardan Sayqa məharətlə kart oynayırdı, qədim kart oyunu "vist"lə. Bəzən Sayqa və onun iki rəfiqəsi gələcək "qonaqların" iştirakı ilə tərəf - müqabili olurdular. Oyunda stolun altında ayaqlar "danışır", Sayqa sarışın saçlarını sinəsinə səpələyir, üzü şəffaflanır, dirsəklərinə qədər çılpaq qolları "qonağına" uzanır, intizarla "oyunun" qurtarmasını gözləyir. Digər qadının yanaqları qızarır, qıvrımı açılmış qara saçları ilan dili kimi titrəyir, canında eşq duyğusuna bənzər hiss oyanır. Burnunu qırışdırıb nəsə pıçıldayır, arabir suyu qurumamış üzünə toxunur. Bu əda Sayqanın gözündən yayınmır. Üçüncü oyundaş nisbətən yaşlı, sərpuşlu qarayanız qadın susur, gözlərindən sadə biclik oxunur. Bu dəm qapı açıldı, Dilşad içəri girdi. O, sanki ovxalanıb döşəməyə töküləcək, odu sönmüş gözlərilə qız - xanımları süzür.

İçəri daha bir qadın daxil oldu. Çox qəşəng füsünkar, may yasəməni qədər təravət saçırdı. Yanaqları bal arısı qonmamış çiçək kimi təravət saçırdı. Kişilərdən daha cavanı bu xanıma diqqətlə baxmaqda idi. Qadına etimadcasına nəzər yetirirdi. Onun qəlb sirrlərini duymağa inamlı idi. Qadının narahatçılığı uçub getmişdi, ürəyindəki nigarançılıq çəkilib toxtamışdı. Belə məqamlarda açıq təbiətli qadınlarla söhbət edir, vəziyyəti dərhal ölçüb - biçirdi, lətafətli sözlər işlədirdi. Qadın aşağı süzülən kirpiklərində, nəzərdən yayınmayan gözlərində, şəhli yanaqlarında doğmaqda olan ehtiras ümidini itirməkdən qorxmurdu...

- o -

Kübar cəmiyyətinin bir qolu olan Cənnət Məkanın qeyri-rəsmi üzvlərini bir neçə nəfər idarə edirdi və başda Dilşad xanım oturmurdu. Onun da ürək qızdırıcı həm qadınları, həm də kişiləri vardı. Harınlamışlar Dilşadın "siyahısında" yer almışdı. O, çapar atın cilovunu əllərində necə bərkbərk saxlayırdısa - rəfiqələrini də beləcə tutmuşdu. Bəzən olur ki, at yiyəsinin sözünə baxmır, ağzına alıb yolu hey irəli cumur ki, mənzili yorsun. Cavan, qırxa yaşı çatmamış qadınlar dişi atlardan fərqli olaraq mənzil başına çatmağa tələsmirlər, buna nə hacət? Rahat məkan, təhlükəsiz cənnət, gündüzün qatmaqarışıq saatlarından sonra gecə əyləncələri. İliq balaca "dambalarda" balıqlar kimi sərbəst atılıb düşən, kişi nəfəsini ciyərlərinə çəkən - "bizlər" - bir qadının etirafı!

İlk aylarda Dilşad xanım özünə çox yaxın rəfiqələrini gətirir, vaxtlarını keçirir, onların işlərinə yarayırdı, kənar qayğıları yerinə yetirirdi. Sonra Dilşad xanım "məişət siyasəti"nə üstünlük verməyə başladı, "nəsil" dəyişikliyinə əl atdı: Cənnət Məkanı kütləviləşdirmək yaramazdı. Ona görə də həmin yarayanlar incə yollarla kənarlaşdırıldı. Sayqa və daha bir neçə qadın yavuqlaşdı. Çox iltifatlar nümayiş etdirməli olurdu. Xoşuna gələn bir cavan qadınla öz iş yerində dil tapmışdı, birinci yerişinə vurulmuşdu, sonra bədən fiqurasına, ona yar olacaq kişinin öhdəsinə buraxacaqdı. Dilşad xanım altdan - altdan bu xanımın xəfif dumana bürünmüş kimi gözünə dəyən saçlarını sığallayır və öpürdü, o da Dilşad xanımın iltifat təzahürlərini cavabsız buraxmırdı, mehribanlıq göstərirdi. Başqa bir qadın rəfiqəsi çəhrayı paltar geyinmişdi, onun dolğun çiyinlərinə, qabarıq döşlərinə, ağ qollarına, ətli əllərinə heyran olmuşdu. Sinəsindən asılmış medalyon parıldayırdı. Onun nazik yubkası mavi bulud kimi süzülür, çılpaq qolunun biri taqətini itirmiş kimi susdalmışdı.

*(Ardı var)*

Məzəli əhvalatları xoşlayıram. Belə əhvalatlarda müəyyən məna, fikir, bəlkə də hikmət olur. Məhz bu səbəbdən məzəli əhvalatları dinləyirəm, oxuyuram. Özüm də söyləyirəm, yazıram.



Eldar MƏMMƏDBƏYLİ
Bakı



# Yuxusuz gecənin hekayəsi

## (Məzəli əhvalatlar seriyası)

*Mən mütləq "Yazıçılar birliyinin" üzvü olacağam*
*Yaşı 80-ni ötmüş insanın-təbiətşünas professorun sayıqlaması*

***

*Boş yerə ağlama, gülmə, nifrət etmə, hər şeyi başa düşməyə çalış*
*Benedikt de Spinoza filosof. Siyasi traktat*

İndi isə keçirəm əsas məsələyə. Yaşı yetmişi ötmüş kişilərdən çox soruşulan suallardan biri belədir: "Sən nə vaxt yatırsan?" Fikrimcə, çox təbii sualdır. Yaxşı yadımdadır, institutda təhsil alarkən rus bölməsinin tibb fakultəsi üçün yazılmış, müəllifi N.Çarıkov olan ingilis dili dərsliyində belə cümləyə rast gəlmişdim: "Sleep is necessary for human body". Dilimizə çevirəndə belə alınır: -"Yuxu insan üçün çox lazımlı haldır". Gənclik illərində buna əhəmiyyət verilməyir. Lakin yaşlaşdıqca bu zəruri halın yerinə yetirilməsində çətinlik yaranır, bəzən yuxu sanki ərşə çəkilir.

Onu da deyim ki, bir çox sahələrə dair yaradıcı fikir, eləcə də elmi fikirlər insanın beyninə yatmağa uzanarkən, lakin yata bilməyərkən gəlir. Təkcə elmi fikirlər yox, həmçinin bədii fikirlər, kaniatda, özəlliklə planetimizdə baş verən hadisələr (son vaxtlarda isə bu hadisələr olduqca geniş vüsət almışdır) haqqında fikirlərim yata bilməyərkən daha aydın olur. Lakin əziz həmvətənlilərim (daha doğrusu, doğma planetimizin əziz insanları - homo sapiens), onu da fikirləşirəm ki, uzanmış halda düşünmək daha əlverişlidir. Çünki fikirləşdiklərimi ayağa qalxarkən tezliklə unuduram. Bəlkə də bu daha yaxşıdır. Yoxsa M.Araz dediyi kimi:

Bu get-gəllər bazarında dəvədir dünya
Bu ömür-gün naxışına həvədir dünya

fikri, yəni nəyəsə dəvə olmaq, nəyəsə həvə olmaq məsələsi mənasız görünərdi. Hər halda mənə belə gəlir. Nə isə.

Yatmaqdan, yuxudan söhbət gedirkən bəzi fikirlər baş qaldırır. Yatmaq, yuxu sanki insanlarla birgə yaranıb. Elə bu baxımdan da yuxular və onların həqiqi mahiyyəti, yaranması həmişə problem olaraq qalıb. Yatmaq əgər xeyirlidirsə, yuxular da gündəlik insan həyatının maraqlı hissəsinə çevrilib. Bəzən insan yatmağa hazırlaşarkən fikrini nəyinsə, kiminsə üzərində cəmləyir. Bu dəfə uzanarkən fikirlərim dəyərli eloğlum İslam Sadıq üzərində cəmlənmişdi. Çox maraqlı həyat yolu keçmiş bu eloğlumu, mən qiyabi olaraq (online) yazdıqları işlərə görə tanıyırdım. İlk dəfə onunla Respublika Sarayında aşıqlar konsertində görüşdüm və yaxından tanış oldum. Adətən Gəncəbasarlılar çox vaxt aşıqlar məclisində və ya digər oxşar tədbirlərdə tanış olurlar. Biz rayonumuzun görkəmli ziyalıları vasitəsilə tanış olduq. Mənə "Koroğlu Gədəbəylidir" adlı kitabını hədiyyə etdi. Evə gələndən sonra bu kitabı gecə səhərə qədər tamam oxudum. Sonralar bu kitabı dəfələrlə oxuyacaqdım.

Bunlardan sonra hörmətlə yanaşdığım bu görkəmli alimlə xeyir-şərdə və digər tədbirlərdə görüşürdüm. İslam müəllim öz görünüşü, oturuşu-duruşu-su, ədası, həm də antropologiyası ilə əsl Koroğluya oxşayır. Ulu Tanrı bu insana əsl Koroğlu görkəmi bəxş etmişdir. Onunla görüşlərimiz nisbətən az olmuşdur. I am sorry, əksərində görüşlərimiz qısa, ani olmuşdur. Hələ bircə dəfə də bəs edincə söhbətləşə bilməmişik. Allah böyükdür. Yəqin ki, belə xoş istək nə vaxtsa qismətə çevriləcəkdir.

Bu maraqlı şəxs Kənd Təsərrüfatı İnstitutunun Zootexnik fakultəsini bitirmiş və ixtisası üzrə işləmişdir. Sonradan isə Moskvada M.Qorki adına Ədəbiyyat İnstitutunun poeziya fakultəsində təhsil almışdır. Azərbaycan filologiya elminin fundamental aktual problemləri sahəsində çıxış edən İslam Sadıq bir çox uğurlar qazanmışdır. O, Şumer ədəbiyyatının Azərbaycanda ilk tədqiqatçılarından biri kimi işə başlamış, sonradan şumerşunaslığın əsasını qoyanlardan birinə, bəlkə də birincisinə çevrilmişdir.

"Koroğlu" dastanını fundamental şəkildə tədqiq edən bu insan Gədəbəydə yerləşən "Koroğlu" qalası haqqında ətraflı məlumat vermişdir. Gədəbəyin Miskinli bölgəsində yerləşən Arısu, Qalakənd, Əlinağılar və Plankənd adlı kəndlərlə əhatə olunmuş "Koroğlu" qalası artıq muzeyə çevrilmişdir. İndi isə demək olar ki, ilin hər dövründə buraya yeni insan dəstələri gəlir, qədim və maraqlı qala ilə tanış olur. Mən isə ta uşaqlıqdan başlayaraq indiki səksəndən çox yaşıma qədər vaxtaşırı seyircisi olduğum bu



qalanı, onun möhtəşəm görkəmini, məğrur duruşunu, hər daşını, torpağını sevən, onunla fəxr edən, qürur duyan bir insan kimi daha çox sevinirəm. Nə yaxşı ki, İslam Sadıq "Koroğlu" qalası haqqında da ətraflı məlumat vermişdir.

Bir konkret hadisə haqda söhbət açmaq istəyirəm.

Evrika! Yuxusuz gecələrin birində "Koroğlu" qalasının yerləşdiyi Miskinli bölgəsinin Böyük Qarabulaq kəndindən olan məhşur kimyaçı alim, professor, yüksək yumor hissinə malik, çox duzlu zarafatcıl Şahmalı Sadıqovun naxçıvanlı dostları ilə etdiyi bir zarafat yadıma düşdü. O, deyirdi ki, Koroğlu gədəbəylidir, Nigar xanım isə naxçıvanlı. Sonralar mən bu zarafatı naxçıvanlı dostlarıma danışırdım. Aramızda xoş zarafatlar, şən söhbətlər olurdu.

Əziz dostum, naxçıvanlı, poeziyanı ürəkdən sevən akademik, görkəmli kimyaçı Nadir Seyidovla bu zarafatı yada salırdıq. O cavab olaraq deyirdi:

- Siz səhv edirsiniz, əksinə Koroğlu naxçıvanlı, Nigar gədəbəylidir. Bu başqa cür ola bilməz.

Mənsə bildirirdim ki, prinsipcə bunun fərqi yoxdur. Əsas məsələ qohumluq və millətin həmrəylik məsələsidir. Bütün bunlarla yanaşı, mən Koroğlunun gədəbəyli olması məsələsinin daha doğru olduğunu hesab etdiyimdən bu məsələni sübut etməyə çalışırdım. Mən coğrafiya fənnini zəif bilirdim. Ancaq bu azacıq biliyimlə göstərmək istəyirdim ki, Gədəbəyin Naxçıvana nisbətən Doğu tərəfdə, həm də "Koroğlu" qalasının daha yüksəklikdə yerləşməsi və digər coğrafi amillər sübut edir ki, Koroğlu gədəbəylidir (özaramızdır, deyəsən axı onları az da olsa razı sala bilmişdim).

Gecəsini yata bilmədiyim səhərki günlərin birində arkadaşım İslam Sadığa zəng etdim. Dedim:

- Hörmətli İslam müəllim, yazdığınız bu gözəl kitaba Şahmalı müəllimin müdrik fikrini əlavə etsəniz kitab daha aktual, Gədəbəy camaatı üçün daha faydalı olardı. Çünki Koroğlunun gədəbəyli, Nigarın naxçıvanlı olması əlverişli qohumluq əlaqəsi yaradır və bütövlüyümüz bizim hamımız üçün daha faydalı olardı.

Deyəsən, İslam müəllim razılaşdı. Bilmirəm, bəlkə də yanılıram, çünki danışarkən yuxulu idim. Oturduğum kresloda artıq mürgüləyirdim. Təzə Novruzun ən xoş gecələrindən biri idi - 22 mart 2024-cü il.